

Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır



# Milli ideologiyamızın yaradıcısı

Bax səh. 4


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 18 aprel 2023-cü il, çərşənbə axşamı / № 066 (6410). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik




## Yeni ünvan...

### Azərbaycan qazı dost Bosniya və Herseqovinaya çatdırıla bilər

Bax səh. 2

## Azərbaycan olmayanda Türkiyə,



## Türkiyə olmayanda Azərbaycan!

Bax səh. 2

## Hərbi təlimlərimizin Ermənistanda yaratdığı xof

Bax səh. 3



## YAP ilə AK Parti arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Bax səh. 5

## Türkiyə iqtisadiyyatı son 20 ildə 3 dəfə böyüyüb

Qardaş Türkiyədəki prezident seçkiləri gününə təxmini, bir ay zaman qalıb. Türkiyədən əlavə dünyanın bir çox yerlərində, xüsusən də, başqa türkdilli ölkələrin siyasi-ictimai çevrələrində bu hadisəyə diqqət çoxdur. Seçkilərlə bağlı çox müzakirələr gedir. Türkiyə, minillik təcrübə sistemli, tarixli, böyük dövlətdir, xalqı da tam formalaşmış toplumdur. Bu xalq kənardan müdaxiləyə, dəstəyə ehtiyac olmadan, özü öz seçimini etmə qüdrətindədir.

Bütün bu hadisələr fonunda əksəriyyət türk dövlətləri iqtidara yenidən Rəcəb Tayyib Ərdoğanın gəlməsi arzusundadır. Bəli, bu sadəcə arzudur. Çünki seçmək və seçilmək yalnız ölkə daxilində baş verməli olan məsələdir. Qardaş ölkələr və dost dövlətlər seçki mərhələsində yalnız həqiqətləri, üstünlükləri vurğulayaraq, bəzi suallara cavab axtararaq dəstəyini nümayiş etdirə bilər. Belə olduqda, niyə Rəcəb Tayyib Ərdoğan seçilməlidir, sualının cavabı da aydınlaşır, çünki qardaş Türkiyənin hazırkı rəhbəri ilə bağlı hər şey açıq və birmənalıdır.

Bu mənada "Yeni Azərbaycan" qəzeti bir ay sonra qardaş Türkiyədə keçiriləcək prezident seçkiləri ilə bağlı yeni rubrikaya başlayır. Diqqətinizə çatdırmaq istərdik ki, seçkilər yekunlaşana qədər qəzetimizdə yerli siyasətçilərin gözü ilə Türkiyədəki vəziyyət şərh...

Bax səh. 5



## Aksiyanın 127-ci günü...

Bax səh. 5

## Partiya sədrinin "yan" reallığı...

### Qeyri -"REAL" müqayisə

Bax səh. 6

## Nikol və Nikolyan...

### Eyni xislət, eyni acizlik

Bax səh. 3

## Tehranın "U" dönüşü...

### Müsəlman ölkələrinə qarşı aqressiv davranışlara son qoyulur?

Bax səh. 7

## Ermənistanın Hindistan "sevgisi"

Bax səh. 7

## İran hakimiyyəti sözündən döndü



Bax səh. 7



## İnsan amilini heçə sayan...

### Fransada etiraz aksiyaları yenidən güclənib

Bax səh. 7

# Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürü

## Ağır atletika üzrə Avropa çempionu Cansu Bektaşa və Ağır atletika üzrə Avropa çempionatının gümüş medal sahibi Qamze Altuna

Əziz Cansu və Qamze,

İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında qızıl və gümüş medallar qazanmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Sizin yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək dünya miqyasında Türkiyə bayrağını dalğalandırmağınız, İstiqlal Marşını səsləndirməyiniz bütün Azərbaycan xalqını sevindirdi.

Qələbələrinizi Azərbaycana həsr etdiyinizə görə Sizə xüsusi təşəkkür edirik. Bu, bir daha onu sübut etdi ki, Azərbaycan olmayan yerdə Türkiyə daim bizi təmsil edir və haqq işimizi dəstəkləyir. Bu, sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığının növbəti təzahürüdür.

Biz Sizinlə fəxr edir, bundan sonra da yeni-yeni qələbələr diləyirik.

Hörmətlə,

**İlham Əliyev və Mehriban Əliyeva**

**Bakı şəhəri, 16 aprel 2023-cü il**



# Azərbaycan olmayanda Türkiyə, Türkiyə olmayanda Azərbaycan!

*Mübariz ABDULLAYEV*

Qardaşlığın, qarşılıqlı münasibətlərin ucadan-uca zirvədə dayanan nümunəsi. Xoş günlərin sevincini bölüşmək, kədərli anlarda bir yerdə olmaq, çətin sınaqlardan çiyin-çiyinə dayanaraq keçmək nümunəsi. Söhbət tarixin dərin qatlarından gələn və əbədiyyətə qədər davam edəcək Azərbaycan-Türkiyə dostluğundan gedir. Olub ki, məkrli qüvvələr xəbis niyyətlərini ortaya qoyaraq dəfələrlə bu dostluğa xələl gətirməyə cəhdlər göstəriblər. Ancaq hər belə cəhd uğursuzluqla nəticələnib, xalqlarımızın sınaqlardan çıxan qardaşlığı getdikcə daha sarsılmaz olub.

Azərbaycan və Türkiyə onlara edilən xain hücumlara həmişə birlikdə cavab veriblər. Azərbaycan olmayanda Türkiyə, Türkiyə olmayanda Azərbaycan cəsarətlə qabağa duraraq haqqın, ədalətin, dost mənafeyinin müdafiəsinə qalxıblar. Buna aid iki nümunənəyə nəzər salmaq yerinə düşər. Diqqət çəkən məqam ondan ibarətdir ki, hər iki halda Azərbaycanın və Türkiyənin bədxahı qismində Ermənistan çıxış edib. Bəhs olunan hadisələrdən biri bu günlərdə Ermənistanın paytaxtı İrəvanda baş tutan ağır atletika üzrə Avropa çempionatında yaşanıb. Digər oxşar məzmunlu hadisəyə isə 2014-cü il aprelin 24-də Praqada dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş sammitdə şahidlik etmişdik.

# "Mən buradayam"

Əvvəlcə Praqa sammitində baş verənləri xatırlayaq. Sammitin baş tutduğu tarixin aprelin 24-nə təsadüf etməsinə xüsusi nəzər salaq. Bu, Ermənistanda saxta "soyqırımının" yad edildiyi gündür. Ermənilər heç bir tarixi faktla təsdiqləyə bilmədikləri "soyqırımının" məsuliyyətinin Türkiyənin daşıdığı iddiasındadırlar. Türkiyə dəfələrlə arxivlərin açılmasını, tarixin mütəxəssislər tərəfindən sənədlər əsasında araşdırılmasını təklif etsə də, Ermənistan dövləti və cəmiyyəti öz iddialarından əl çəkmək istəmir. Bu ölkənin sabiq dövlət başçısı Serjik Sarkisyan xəstə erməni təxəyyülünün məhsulu olan iddianı növbəti dəfə bəhs olunan Praqa sammitində gündəmə gətirmək istəyib. Belə ki, Ermənistanın sabiq prezidenti zirvə görüşünün plenar iclasında öz çıxışını bütünlüklə qondarma "erməni soyqırımı" ilə bağlı mülahizələrə həsr edib. Türkiyənin sammitdə təmsil olunmamasından sui-istifadə edən Ermənistan rəsmisi bununla da zirvə görüşünün plenar iclasının mövzusundan tamamilə kənara çıxaraq qondarma "soyqırımı" məsələsini qabardıb və Türkiyəni əsas tənqid hədəfi kimi seçib. Serjik Sarkisyan bir tərəfdən Türkiyəni qondarma "soyqırımı" ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edib və bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyib. Ermənistanın sabiq prezidenti çıxışında hər vəchlə inandırmağa çalışıb ki, Avropa ictimaiyyəti qondarma "soyqırımı" ilə bağlı daha təsirli mövqe tutmalıdır.



Praqada Azərbaycan Prezidentinin nümayiş etdirdiyi qətiyyətli mövqe - sammitə Türkiyə təmsilçisinin qatılmamasından istifadə edərək rəsmi Ankaranın ünvanına hədyanlar, qondarma "soyqırımı" sayıqlamalarını dilə gətirən Ermənistanın sabiq prezidenti Serjik Sarkisyana tutarlı cavab verməsi heç vaxt yaddaşlardan silinməyəcək. "Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm", - deyə dövlətimizin başçısı Ermənistan rəsmisi tərəfindən saxta ittihamlara tuş gələn Türkiyənin müdafiəsinə qalxıb. Azərbaycan Prezidenti sammitdəki tarixi çıxışında Ermənistanın riyakarlığını, işğalçılıq siyasətinin əsl mahiyyətini yüksək tribunadan beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Dünya bir daha eşidib ki, "ermənilərin soyqırımı" iddiaları blefdir, hər hansı bir tarixi fakta söykənmir. Sərhədlərin bağlanmasına səbəb isə Ermənistanın Azərbaycana qarşı bağladığı işğalçılıq siyasəti olub. Beləliklə, Ermənistanın sabiq dövlət başçısı çıxılmaz durumda qalıb. Onun, sadəcə, deməyə sözü yox idi. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin sammitdə qardaş ölkəni müdafiə məqsədilə səsləndirdiyi fikirlər Türkiyə ictimaiyyəti tərəfindən düşmən ölkənin rəhbərinin sifətinə vurulan tərs sillə kimi dəyərləndirildi.

# "Medalı azərbaycanlı qardaşlarıma həsr edirəm"

İndi isə bir neçə gün bundan əvvəl İrəvanda ağır atletika üzrə Avropa çepionatında yaşananlara diqqət çəkək. Bu dəfə Ermənistanın bədxahlığına tuş gələn Azərbaycan idi. Çempionatın açılış mərasimində vandalizm əməlinə yol verildi: Bayraqların paradında Azərbaycan Bayrağı zala gətirildikdən sonra azarkeşlərdən biri səhnəyə çıxaraq qızın əlindən milli simvolumuzu götürərək yandırıb və zaldan çıxarıb. Ermənistan liderinin - baş nazir Nikol Paşinyanın qatıldığı tədbirdə belə bir hadisənin yaşanması Ermənistanda rasizmin, Azərbaycanafobiyanın dövlət siyasəti səviyyəsinə yüksəldildiyini əyani şəkildə təsdiqləyir. İrəvanda Azərbaycan Bayrağının yandırılması ilə əlaqədar millimizin yarışda iştirakından imtina edilib. Bu barədə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsinin birgə bəyanatında bildirilib.




Bu dəfə Türkiyə təmsilçiləri Azərbaycan idmançılarının müdafiəsinə qalxıblar. Çempionatda türkiyəli idmançı qızıl medal qazanıb. Belə ki, 45 kiloqram çəki dərəcəsində çıxış edən Cansu Bektaş fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, birdən qaldırmada 72 kiloqramın öhdəsindən gələrək qızıl medala sahib olub. İrəvanda Azərbaycan Bayrağının yandırılmasından mütəəssir olduğunu gizlətməyən türkiyəli atlet idmançılarımıza dəstək jesti edərək belə deyib: "Aldığım medalı azərbaycanlı qardaşlarıma həsr edirəm, onları çox sevirik. Biz hər zaman sizin yanınızdayıq!".

# Yeni ünvan...

## Azərbaycan qazı dost Bosniya və Herseqovinaya çatdırıla bilər

*MÜBARİZ FEYİZLİ*

Ötən illərin təcrübəsinə istinadən deyə bilərik ki, zəngin resurslara malik olan Azərbaycan bütün tərəfdaşları ilə ölkəmizin milli maraqlarını yüksək səviyyədə təmin edən fəal enerji dialoqu qurub. Biz müşahidə edirik ki, resurslara malik ayrı-ayrı ölkələr bir sıra hallarda enerji amilini siyasi təzyiq vasitəsinə çevirirlər. Azərbaycan belə məqsədlərdən uzaqdır. Ölkəmizin uzun illəri əhatə edən enerji siyasətində qarşılıqlı maraqların təmin olunması həmişə qırmızı xətt kimi keçib. Belə ki, bu əməkdaşlıqdan həm ölkəmiz, həm də tərəfdaş dövlətlər dividendlər götürüblər. Öz növbəsində qazandığı belə müsbət imicə görədir ki, Azərbaycanla enerji dialoqu qurmağa can atan dövlətlərin sayı getdikcə artır.

## Qoca qitənin yeni enerji xəritəsi

Azərbaycan çox doğru olaraq Avropanın yeni enerji xəritəsini formalaşdıran ölkə kimi səciyyələndirilir. İndiki ciddi kataklizmlər dövründə ölkəmiz qoca qitə üçün yeni mənbə qismində çıxış edir. Eyni zamanda, müasir nəql infrastrukturuna malik olması respublikamızın böyük üstünlüyüdür. Məlum geosiyasi reallıqlar fonunda ənənəvi təchizat əlaqələri pozulan Avropa özünün enerji təhlükəsizliyini şaxələndirilmiş mənbələr hesabına təmin etməyi və daha böyük həcmlərdə mavi yanacaq idxalına nail olmağı hədəfləyib. Azərbaycan bu ehtiyacı ödəməyə hazır və qadir ölkədir. Qaz yataqlarının istismarı ölkəmizin uzunmüddətli dövrə hesablanan enerji strategiyasının neftdən sonra ikinci mərhələsini təşkil edir. Müstəqil Azərbaycanın "Əsrin müqaviləsi"ndən sonra transmilli şirkətlərlə imzaladığı ikinci böyük kontrakt "Şahdəniz" qaz yatağı üzrədir. Bütövlükdə, Azərbaycanın təsdiq edilmiş mavi yanacaq ehtiyatlarının həcmi 2,6 trilyon kubmetrə bərabərdir. Ancaq ehtiyatlarımızın bundan daha çox olduğu proqnozlaşdırılır. Azərbaycan qazının xarici istehlakçılara çatdırmaq üçün 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri istismara verilib. "Şahdəniz" yatağının birinci mərhələsi çərçivəsində hasil edilən qazın bu kəmərlə ixracına başlanıb. Bununla da Azərbaycan özünü dünyada həm də mavi yanacaq ölkəsi kimi təsdiqləməyə başlayıb. Lakin "Şahdəniz" və digər yataqların zəngin ehtiyatlarının Avropaya çatdırılması üçün daha böyük həcmli yeni dəhlizin yaradılmasına ehtiyac var idi. Beləliklə, respublikamız özünün böyük qaz həcmlərini ixrac etmək və Avropanın enerji təhlükəsizliyinə yeni töhfələr vermək məqsədilə Cənub Qaz Dəhlizinin yaradılması təşəbbüsünü irəli sürüb. Prezident İlham Əliyev fəal diplomatik səylərlə qısa müddətdə Cənub Qaz Dəhlizi ətrafında həmrəy olan komanda formalaşdırmağa nail oldu. Ölkəmizin moderatorluğu ilə 4 mühüm seqmendən ibarət olan Cənub Qaz Dəhlizinin inşası 2020-ci il dekabr ayının sonlarında uğurla tamamlandı. Beləliklə, enerji təhlükəsizliyi ilə bağlı ciddi narahatlıqlar yaşayan Avropa alternativ tədarük marşrutu qazandı.

Resurslarla, ideal nəql marşrutları ilə yanaşı, Azərbaycanın Avropa bazarlarına daha çox həcmlərdə mavi yanacaq çıxartmağa qətiyyətli siyasi iradəsi də ortadadır. Respublikamız həm qonşu Gürcüstana və Türkiyəyə, həm də Avropaya qaz nəqli ilə bağlı öhdəliklərinə yüksək səviyyədə əməl edir. Ölkəmizdən təbii qaz ixracı artır. Ötən il ixrac həcmi 19 milyard kubmetr civarında idisə, cari ildə bu rəqəmin 24 milyard kubmetrə çatdırılması hədəflənib.



## Avropada Azərbaycan qazına ehtiyacı olan ölkələr

Cənub Qaz Dəhlizi istifadəyə verildikdən heç iki il keçməmiş məlum oldu ki, Avropada Azərbaycan qazına daha çox ehtiyac var. Buna görə də hazırda qoca qitədə Cənub Qaz Dəhlizinin yeni qolları yaradılır. Ötən il oktyabrın 1-də Prezident İlham Əliyev Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasiminə qatıldı. Tədbirdə qeyd olunduğu kimi, IGB kimi layihələr Avropanı qazla kifayət qədər təmin edəcək. Qaz kəmərinin işə salınması ilə Bolqarıstan və Cənub-Şərqi Avropa üçün yeni dövr başlayıb. Eyni zamanda, Avropanın digər məkanlarında da interkonnektorlar şəbəkəsi genişləndirilir. Paralel olaraq Cənub Qaz Dəhlizinin TANAP və TAP seqmentlərinin ötürücülük imkanlarının artırılması ilə bağlı müzakirələr intensivləşib. Avropa Komissiyası Cənub Qaz Dəhlizinin genişləndirilməsinə dəstək göstərəcəyini ifadə edib. Yeri gəlmişkən, 2022-ci ilin iyul ayında Prezident İlham Əliyev və Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen müvafiq Anlaşma Memorandumu imzalayıblar. Bu, çox əhatəli sənəddir. Memoranduma əsasən, Azərbaycandan qoca qitəyə qaz ixracının həcminin 2027-ci ilə qədər ən azı iki dəfə artırılması nəzərdə tutulur.

Deyə bilərik ki, Azərbaycan qazına müştəri düşən Avropa ölkələri növbəyə dayanıblar və sıralarının gəlməsini səbirsizliklə gözləyirlər. Biz Prezident İlham Əliyevin təkcə son aylarda Albaniyada, Serbiyada, Bolqarıstanda və digər məkanlarda apardığı enerji dialoqunu böyük qürur hissi ilə izlədik. Belə dialoq, həmçinin Avropa İttifaqının və ayrı-ayrı dövlətlərinin yüksəksəviyyəli rəsmiləri ilə Bakıda da aparılıb. Azərbaycan qazının çatdırılacağı yeni ünvan isə dost Bosniya və Herseqovina ola bilər. İki ölkə arasında siyasi dialoq yüksək səviyyədədir və qarşılıqlı münasibətlər getdikcə genişlənir. Bu günlərdə Azərbaycan Prezidentinin bu dost ölkəyə uğurlu rəsmi səfəri baş tutub. Səfər çərçivəsində aprelin 13-də Sarayevoda "Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanıb. Eyni zamanda, Prezident İlham Əliyevin Sarayevoda keçirdiyi tədbirlərdə iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinə böyük maraq ifadə olunub. Perspektivdə enerji dialoqunun qurulması da tam realdır. Mətbuata verdiyi Bəyanatında bununla bağlı fikirlərini ifadə edən Prezident İlham Əliyev vurğulayıb: "Eyni zamanda, energetika sahəsində çox geniş imkanlar vardır. Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddət ərzində bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir. Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq. Müvafiq göstərişlər artıq verilmişdir".

# “Əvəzsiz Lider”

*MÜBARİZ*




Zaman ötsə də, Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin irsinə maraq azalmır, əksinə insanlar bu böyük şəxsiyyətin həyat və fəaliyyəti ilə daha yaxından tanış olmaq istəyirlər. Bunu “Heydər Əliyev İli” çərçivəsində aparılan araşdırmalar, işıq üzü görən nəşrlər də təsdiqləyir. Ümummilli Liderimizin fəaliyyətindən bəhs edən “Əvəzsiz LİDER” adlı daha bir kitab işıq üzü görüb. Kitabın müəllifi Azərbaycan Respublikası Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Elmi Mədəni Mərkəzinin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) üzvü Vüqar Sərdarovdur.

Yeni Azərbaycan Partiyasının fəallarından olan Vüqar Sərdarovun qələmə aldığı kitabı “Əvəzsiz Lider” adlandırması müəllifin Ulu Öndərin həyat və fəaliyyətinə özünəməxsus baxışını və yanaşmasını ifadə edir. Heydər Əliyevin bir neçə onillik ərzində və həm də müxtəlif ictimai-siyasi formasiyalarda, fərqli ideoloji çərçivələr daxilində Azərbaycana uğurla rəhbərlik etməsi, respublikanı daim inkişafa istiqamətləndirməsi lider şəxsiyyətin tarixdəki yeri və böyük rolu barədə konkret təsəvvür yaradır. Dünya ölkələrinin təcrübəsindən, keçdiyi yoldan da bəlli olduğu kimi, liderlər həmişə insanları yeni, mütərəqqi ideyalar ətrafında səfərbər ediblər, onları mübarizəyə ruhlandırıblar, bəzən tarixin axarını belə dəyişiblər, prosesləri cəmiyyətin sosial sifarişlərinə istiqamətləndiriblər. Heydər Əliyevin həm keçmiş sovet dönəmində, həm də müstəqillik illərində Azərbaycanın rəhbəri kimi fəaliyyəti də məhz bu kimi taleyüklü məqamlarla səciyyələnir.

Vüqar Sərdarov kitabda Heydər Əliyevin çoxşaxəli fəaliyyətini epoxalar üzrə təqdim edib. Ulu Öndərin Azərbaycan naminə fədakar fəaliyyətinin iki mərhələsini fərqləndirə bilərik. Birinci mərhələ Onun keçmiş sovet dönəmindəki fəaliyyətini əhatə edir. O dövr müəyyən ideoloji məhdudiyyətləri ilə səciyyələnirdi. Ancaq Heydər Əliyevin milli təəssübkeşliyi, uzaqgörənliyi və müdrikliyi Ona bu məhdudiyyətləri aşmağa imkan verirdi. Zaman-zaman ölkələrin, xalqların tarixində elə hadisələr baş verir ki, onların milli mənafe baxımından önəmi getdikcə daha aydın dərk olunur. Keşməkeşli tarixə malik Azərbaycan üçün taleyüklü belə hadisələrdən biri 1969-cu ilin 14 iyulunda baş verdi. Həmin tarixdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin növbəti plenumunda sonralar xalqımızın Ümummilli Lideri səviyyəsinə yüksələn Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilərək respublikanın rəhbəri oldu. Təqdim olunan kitabda oxucuya Heydər Əliyevin idarəçilik fəlsəfəsinin milli mahiyyət daşıdığı və gələcəyə hesablandığı ideyası aşılanır. Heydər Əliyev keçmiş sovet dönəmində respublikamızda yeni milli intibahın əsasını qoyan əvəzsiz Liderdir. Kitabda Heydər Əliyevin Azərbaycan gənclərini keçmiş ittifaqın qabaqcıl ali məktəblərinə təhsil almağa göndərməsi, ədəbiyyatımıza, milli mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizin qorunmasına müstəsna qayğı göstərməsi, respublikanı sənaye inkişafına istiqamətləndirməsi, aqrar sektoru yeni yanaşmalar əsasında inkişaf etdirməsi kimi məqamlara diqqət çəkilib. Heydər Əliyev bütün bunları Azərbaycanın sabahını düşünərək edirdi. Liderin təşəbbüsləri, fəallığı, sonradan keçmiş SSRİ kimi nəhəng bir dövlətin rəhbərliyində təmsil olunması hər bir azərbaycanlıda milli kimliyinə görə qürur hissi oyadırdı. Ulu Öndər xalqımıza azərbaycançılıq ideologiyasının əsaslarını aşıladı. Məhz bu ideologiya ilə silahlanan və yüksək həmrəylik nümayiş etdirən azərbaycanlılar ötən əsrin doxsanıncı illərinin əvvəllərində müstəqillik uğrunda mübarizəyə qalxdılar, 2020-ci ildə Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanı Zəfərə imza ataraq ölkənin ərazi bütövlüyünü təmin etməyə nail oldular.

Vüqar Sərdarov təqdim etdiyi kitabında Heydər Əliyevin 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gəlməsinə də işıq salıb. Bu o dövr idi ki, respublikada vətəndaş qarşıdurması baş qaldırmışdı. Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasəti genişlənirdi. İyirminci yüzillikdə ikinci dəfə qazandığımız müstəqilliyin yenidən əldən getməsi təhlükəsi tam real idi. Belə bir şəraitdə Heydər Əliyev xalqın Ona bəslənən ümidlərinin qırılmasına imkan vermədi. Müəllif Heydər Əliyevi qurtuluş tariximizin memarı kimi təqdim etməkdə tam haqlıdır. Məhz Heydər Əliyev aldığı müdrik qərarlarla respublikanı fəlakət burulğanından çıxartmağı və sabitliyə, inkişafa istiqamətləndirməyi bacardı.

# Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq genişləndirilir



Çin Xalq Respublikasında səfərdə olan Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyətinin aprelin 17-də Pekində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Can Min ilə görüşü olub.

Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşı kimi fəal rolunu vurğulayan baş katib Can Min son dövrlər ölkəmizin təşkilat çərçivəsində keçirilən tədbirlərdə fəal iştirakını təqdir edib. ŞƏT-in ötən ilin sentyabrında Səmərqənddə keçirilən Sammitində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakını xüsusi vurğulayan Can Min təşkilat ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan danışıb. Baş katib ŞƏT-in tədbirlərində Heydər Əliyev Fondunun yaxından iştirakının Azərbaycan-ŞƏT əməkdaşlığını möhkəmləndirdiyini deyib, Azərbaycanın təşəbbüsü ilə ŞƏT-in katibliyində keçirilmiş bir sıra mühüm tədbirlər sayəsində Azərbaycanın mədəni-humanitar potensialı nümayiş etdirildiyini bildirib.

Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə böyük önəm verdiyini vurğulayaraq, müxtəlif sahələrdə əməkdaşlığın inkişafı perspektivlərindən danışıb. A.Ələkbərov bildirib ki, Azərbaycan ŞƏT-in dialoq tərəfdaşı statusunu aldıqdan sonra Heydər Əliyev Fondu təşkilatlın katibliyi ilə sıx əməkdaşlıq edərək, bir neçə tədbir, o cümlədən 2018-ci ildə Azərbaycan mədəniyyəti günü, “Nizami Gəncəvi İli” çərçivəsində “Nizami Gəncəvi - bütün bəşəriyyətin şairi” adlı tədbir keçirib. O, Heydər Əliyev Fondunun hədiyyəsi olan dahi şairin büstünün Şanxay Əməkdaşlıq Təşkilatının katibliyinin binasında daim nümayiş olunmasının Azərbaycan üçün böyük rəmzi xarakter daşıdığını deyib.

A.Ələkbərov bildirib ki, Səmərqənd Sammitində Prezident İlham Əliyevin fəxri qonaq statusunda iştirakı Azərbaycanın ŞƏT ilə əməkdaşlığı daha yüksək səviyyəyə qaldırmasında maraqlı olduğunu göstərir. O, Azərbaycanın təşkilat yanında statusunun dialoq üzrə tərəfdaş səviyyəsindən müşahidəçi səviyyəsinə yüksəldilməsi ilə bağlı müvafiq müraciət ünvanladığını xatırladıb, Azərbaycanın ŞƏT yanında müşahidəçi statusu əldə etməsi ilə sözügedən təşkilatın fəaliyyətinə daha böyük töhfə verə biləcəyinə inamını ifadə edib.

Görüşdə 2023-cü ilin Azərbaycanda “Heydər Əliyev İli” elan olunduğu vurğulanıb və il ərzində Azərbaycanda, eləcə də xaricdə Ümummilli Liderin anadan olmasının 100 illiyi ilə bağlı müxtəlif tədbirlərin keçiriləcəyi diqqətə çatdırıb.

Azərbaycanın təşkilatın müşahidəçi statusunu almaq üçün müraciətinin hazırda üzv dövlətlər tərəfindən baxıldığını bildirən Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Can Min müraciətin müsbət nəticələnəcəyinə ümidvar olduğunu bildirib. O, təmsil etdiyi təşkilatın tarixi və fəaliyyəti haqqında məlumat verib.

Söhbət zamanı Azərbaycan ilə ŞƏT arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb.

x x x

Səfər çərçivəsində nümayəndə heyəti Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Lin Sontien ilə görüşüb.

Lin Sontien iki ölkənin başçıları Si Cinpin və İlham Əliyevin rəhbərliyi altında Azərbaycan-Çin münasibətlərinin sürətlə inkişaf etdiyini bildirib, dövlət başçıları arasında siyasi etimadın müxtəlif sahələrdə uğurlu əməkdaşlığına böyük təkan verdiyini deyib.

Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Lin Sontien Çin ilə Azərbaycan arasında münasibətlərin qurulmasında görkəmli siyasi xadim Heydər Əliyevin rolunu vurğulayaraq, Ümummilli Liderin bu xidmətlərinin daim xatırlanacağını qeyd edib. O, dövlət başçılarının mütəmadi görüşlərinin ölkələrimizin əməkdaşlığının dərinləşməsində mühüm rol oynadığını deyib.

Lin Sontien rəhbərlik etdiyi Assosiasiya ilə Heydər Əliyev Fondu arasında 2017-ci ildə imzalanmış memorandumun humanitar və mədəni sahədə əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini bildirib, gələcəkdə digər sahələrdə, o cümlədən iqtisadi, turizm, gənclər, idman, media istiqamətlərində də əməkdaşlığın mümkünlüyünü vurğulayıb.

Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fond ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının əməkdaşlığının iki xalq arasında yaxın dostluq münasibətlərinin daha da möhkəmlənməsinə böyük töhfələr verdiyini deyib. Gələcəkdə hər iki ölkə ərazisində keçirilən beynəlxalq tədbirlərdə qarşılıqlı iştirakın vacibliyi vurğulanıb.

Azərbaycanın Çinin “Bir kəmər, bir yol” təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olduğunu vurğulayan A.Ələkbərov Prezident İlham Əliyevin Pekində ikinci “Bir kəmər, bir yol” beynəlxalq əməkdaşlıq forumunda iştirakını yada salıb. O, Azərbaycanın sahib olduğu iqtisadi, habelə nəqliyyat-logistika potensialı ilə həmin təşəbbüsün icrasına böyük töhfələr verdiyini deyib.

Görüşdə Heydər Əliyev Fondu və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

# Hərbi təlimlərimizin Ermənistanda yaratdığı xof

## Azərbaycanın Müdafiə Nazirliyi qarşı tərəfin məlumatını təkzib etdi

*Nardar BAYRAMLI*




Ötən gün Ermənistanın Müdafiə Nazirliyi guya Azərbaycan Ordusunun Basarkeçər-Kəlbəcər istiqamətində qarşı tərəfə atəş açması barədə məlumat yayıb. Lakin Azərbaycan Müdafiə Nazirliyi bu məlumatı təkzib edərək onun həqiqəti əks etdirmədiyini bəyan edib: “Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Basarkeçər rayonunun Zod istiqamətində atəş açılması ilə bağlı Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat yalandır”.

Xatırladaq ki, sərhəddə hərbi təxribatı bir neçə gün öncə erməni tərəfi Laçın rayonu istiqamətində törətmişdi. Bu təxribatın qarşısını alarkən üç hərbçimiz şəhid olmuşdu. Bəs ermənilərin bu cür yalan məlumatlar yaymasının səbəbi nədir? Məlumdur ki, Ermənistan ərazisində Avropa İttifaqının monitorinq missiyası fəaliyyət göstərir. Ölkəmiz haqqında mənfi rəy yaratmaq üçün rəsmi İrəvan məhz belə dezinformasiyalar yaymaqla məşğuldur. Laçın istiqamətində hərbi təxribatdan bir neçə gün öncə də Ermənistanın bəzi rəsmi şəxsləri Azərbaycanın hərbi eskalasiyaya hazırlaşması ilə bağlı açıqlamalar vermişdilər. Əslində, bu, erməni tərəfinin düşünülmüş addımı idi ki, öz hərbi təxribatlarını ordumuzun üzərinə atsınlar. Bununla da, beynəlxalq ictimaiyyətdə, o cümlədən Avropa İttifaqının missiyasında ölkəmizə qarşı mənfi rəy formalaşdırılsın. Hətta ordumuzun hərbi təlimləri zamanı eşidilən atəş səslərini də erməni tərəfi “atəşkəsin pozulması” kimi qələmə verir. Bu baxımdan, Ermənistanın Müdafiə Nazirliyinin yaydığı son yalan məlumat da həmin məqsədlərin tərkib hissəsi sayıla bilər.

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən hərbi ekspert Emin Həsənli bildirib ki, erməni tərəfi mütəmadi olaraq təxribatlar törətməklə bölgədə gərginlik yaratmağa çalışır. Ermənilər tarixən xalqımıza qarşı soyqırımları törədib, bizim torpaqlarımız hesabına “böyük Ermənistan” yaratmaq xülyası ilə yaşayıblar. Bəzi böyük dövlətlər ermənilərdən Azərbaycana və Türkiyəyə qarşı istifadə etməyə çalışırlar. Dövlət sərhədində təxribatların törədilməsinə gəlincə, ekspert hesab edir ki, Ermənistan regionda vəziyyəti gərginləşdirməyə çalışmaqla münasibətlərin normallaşdırılması təşəbbüslərinə qarşı çıxır: “Belə təxribatlar isə rəsmi İrəvanın özü üçün problemlər yaradacaq. Ermənistan müharibədə məğlub olub, ona görə də mövcud reallıqlarla barışmalı, razılaşmalara, o cümlədən beynəlxalq hüquq normalarına və götürdüyü öhdəliklərə əməl etməlidir. Regionda sülhün təmin olunması üçün bir sıra beynəlxalq təşəbbüslər mövcuddur. Azərbaycan bu təşəbbüsləri dəstəkləyir və çalışır ki, tezliklə sülh sazişi imzalansın. Amma Fransa, dünyadakı erməni lobbisi prosesi pozmaq üçün müxtəlif vasitələrdən istifadə edir. Ermənilərin son təxribatları belə rəy formalaşdırmağa xidmət edir ki, guya tərəflər arasında sülh sazişi imzalamaq hələ tezdir, tərəflər buna hazır deyil, dövlətləri və xalqları sülhə hazırlamaq lazımdır və s. Yəni, müxtəlif bəhanələrlə prosesi uzadırlar. Bunun da bütün məsuliyyəti Ermənistan hakimiyyətinin üzərinə düşür. Əgər Ermənistan təxribatlarından əl çəkməsə, dəmir yumruq daha sərt və ağır olacaq. Buna görə də, Paşinyan hakimiyyəti əvvəlki təcrübələrdən nəticə çıxarmalıdır. Azərbaycan öz təhlükəsizliyini yüksək səviyyədə təmin edir. Dövlət sərhədində Ermənistanın hərbi təxribatlarının qarşısının necə alındığını görürük. Bu mənada, erməni tərəfi bundan sonra da layiqli cavablarını alacaq”.

Ekspertin fikrincə, ermənilər ordumuzun hərbi təlimlərindən də qorxuya düşür: “Erməni tərəfi ordumzun gücünə yaxşı bələddir. Hətta hərbi təlimlərin səsini eşidəndə də onlar təşvişə düşürlər. Onlar rahar yaşamaq istəyirlərsə, Azərbaycanın şərtləri əsasında sülh sazişini imzalamalıdırlar. Yoxsa, yalan məlumatlar yaymaqla heç nəyə nail ola bilməyəcəklər”.

# Nikol və Nikolyan...

## Eyni xislət, eyni acizlik

### Dünya tanısın: Ermənilər kimdir?

Bu günlərdə İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında dünya idman tarixində qara bir ləkə kimi qalacaq hadisə yaşanıb - açılış mərasimində Azərbaycana qarşı rəzillik edilib. Belə ki, bayraqların paradında Azərbaycan Bayrağı zala gətirildikdən sonra azarkeşlərdən biri səhnəyə çıxaraq qızın əlindən milli simvolumuzu götürərək yandırıb və zaldan çıxarıb. Sonradan bu şəxsin çempionatın təşkilatçıları sırasında yer alan Aram Nikolyanın olduğu üzə çıxıb. Oxşar hadisə çempionatın sonrakı günlərində də yaşanıb. Bu dəfə yarışın keçirildiyi zalın tavanından Azərbaycan və Türkiyənin cırılmış bayraqları asılıb.

### Ermənistana hakim olan Azərbaycanafobiya və türkofobiya

Mötəbər idman yarışında baş verən bu iki hadisəni müxtəlif baxış bucaqlarından dəyərləndirmək mümkündür. Baş verənlər ilk növbədə erməni xislətini təzahür etdirir. Erməni xisləti hər kəsə bəllidir. Onlar cildlərini tez dəyişməyi, mühitə uyğunlaşmağı yaxşı bacarırlar. Bir çox hallarda onlar yazıqlanırlar, özlərini məzlum qiyafəsində təqdim edirlər. Bununla da ermənilər dünyadakı müxtəlif fondlardan və ölkələrdən böyük həcmlərdə ianələr almağa, həyatlarını təmin etməyə nail olurlar. Məhz bu yazıqlanmağın sayəsində Ermənistana ABŞ-dan, Avropa ölkələrindən yardımlar, qrantlar gəlir. Digər hallarda ermənilər asanlıqla vandala, qaniçənə, heç kəsə aman verməyənə, uşaq qatilinə çevrilirlər. İşğal illərində şəhər və kəndlərimizin ermənilər tərəfindən dağıdılması, sərvətlərimizin talanması, tarixi-mədəni irsimizin mənimsənilməsi, 1992-ci ildə törədilən Xocalı faciəsi buna misaldır. Tarixən ermənilər özləri barədə “mədəni xalq” mifi yaratmağa çalışıblar. Ancaq işğal illərində ermənilərin törətdikləri vəhşiliklər bu mifi tamam dağıdıb.

Mötəbər idman yarışında iştirakçı ölkələrin bayraqlarının yandılması və cırılması bütövlükdə Ermənistan dövlətinin və cəmiyyətinin Azərbaycana və Türkiyəyə münasibətinin ifadəsidir. Bu ölkədə Azərbaycanafobiya və türkofobiya dövlət siyasəti səviyyəsinə qaldırılıb, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Beynəlxalq səviyyəli çempionatda bayraqlarımıza qarşı edilən hörmətsizliyi də məhz bu kontekstdən dəyərləndirmək lazımdır. 44 günlük müharibədəki acınacaqlı məğlubiyyəti həzm edə bilməyən Ermənistana rasizm, revanşizm kimi meyillər hakim kəsilib. Bu gün istisnasız olaraq bütün ermənilərin azərbaycanlılara və türklərə qarşı nifrət hissləri ilə yaşadıqları fikrini qətiyyətlə ifadə edə bilərik.

Ağır atletika üzrə Avropa çempionatı bir idman yarışmasıdır. Kim güclüdürsə, o da qalib gəlməlidir. Burada 2015-ci ildə Azərbaycanın ev sahibliyi etdiyi Birinci Avropa Oyunları yada düşür. Həmin yarışlara müxtəlif millətlərdən olan idmançılar qatıldılar və yarışlar yüksək səviyyədə başa çatdı. Xatırladaq ki, Birinci Avropa Oyunlarında Prezident İlham Əliyev Ukraynadan olan erməni əsilli idmançıya mükafatı şəxsən təqdim etdi. Arenaya toplaşan tamaşaçılar da bunu alqışlarla qarşıladılar. Bakıda erməni əsilli idmançının mükafatlandırılmasının və İrəvanda Azərbaycan və Türkiyə bayraqlarına hörmətsizliyin edilməsinin timsalında biz fərqi aydın şəkildə görüb müqayisə edə bilərik. Azərbaycan bütün millətlərin idmançılarının əlini sıxdığı halda, Ermənistan hətta idman yarışlarında belə rasizm nümunəsi sərgiləyir. Otuz illik işğal dövründə və indi Ermənistana havadarlıq edənlər bu fərqi görüb nəticə çıxartmalıdırlar.

### Ermənistan cəzalandırılmalıdır

İrəvanda Azərbaycan bayrağının yandırılması və cırılması, Türkiyə bayrağına edilən hörmətsizlik həm də Ermənistanın mötəbər çempionata məsuliyyətsiz hazırlaşmasını, ümumiyyətlə bu ölkədə təşkilatçılıq imkanlarının məhdud olmasını ortaya qoyur. Yenə də müqayisələr aparmaq məcburiyyətindəyik. Azərbaycan həm Birinci Avropa Oyunlarında, həm də IV İslam Həmrəyliyi Oyunlarında həm çoxmədəniyyətliliyə açıq olduğunu sübuta yetirdi, həm də yüksək təşkilatçılıq imkanlarına malik olduğunu nümayiş etdirdi. Beynəlxalq səviyyədə etiraf olunduğu kimi, həmin yarışlarda ölkəmiz yeni dünya standartları müəyyənləşdirdi. Ermənistana gəldikdə isə, yenə də biz autsayder bir ölkə görürük. İştirakçı ölkənin bayrağının yandırılması və yaxud cırılması o anlama gəir ki, ev sahibi olan dövlət yarışların təhlükəsizliyi ilə bağlı bütün məsələləri lazımi səviyyədə təşkil etməyib və yaxud buna gücü çatmayıb.

Beynəlxalq idman ictimaiyyəti İrəvanda baş verənlərdən nəticə çıxartmalıdır. Təşkilatçı dövlətin cəzalandırılması labüddür. Əks halda presedentlər baş verə bilər. Dünyada qəbul olunmuş qaydalar və prinsiplər var - həmişə idman siyasətdən ayrı tutulur. Beynəlxalq yarışlar bir növ xalqlar və ölkələr arasında körpü yaradır. Ermənistanın timsalında isə biz körpülərin yandırıldığının şahidi olduq. Ermənistanın cəzalandırılması müxtəlf formalarda həyata keçirilə bilər. Ən optimal variant isə gələcəkdə bu ölkənin beynəlxalq yarışlara ev sahibliyi hüququnun verilməməsi olardı.

### Beynəlxalq qınaq

Yeri gəlmişkən, Avropa Ağır Atletika Federasiyası Ermənistanın paytaxtı İrəvanda atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı Azərbaycan Bayrağının yandırılmasını qəti şəkildə pisləyib. Bu barədə federasiya bəyanat yayıb. Bəyanatda bildirilib: “Avropa Ağır Atletika Federasiyası son dərəcə ciddi və təəssüf doğuran bu jesti idman dəyərlərinin bütövlüyünə və ədalətli oyunun universal prinsiplərinə dair hücum kimi nəzərdən keçirir.

Avropa Ağır Atletika Federasiyası bu hadisəyə dərhal reaksiya verib, təşkilat komitəsinə mövqeyini bildirib. Federasiya daim Azərbaycan Respublikasından olan nümayəndə heyətinə, idmançılara, məşqçilərə və vəzifəli şəxslərə tam həmrəylik və dəstək ifadə edir”.

Federasiya Təşkilat Komitəsindən təcili tələb olunan əlavə tədbirlərin həyata keçirilməsini izləyəcək.

Avropa Ağır Atletika Federasiyası baş verənlərə təəssüf edib. Qeyd edilib ki, federasiya üzvləri Azərbaycan idmançıları Ermənistanı tərk edənə qədər heyət üçün bütün təhlükəsizlik şəraitinin təmin olunmasında birbaşa iştirak edib.

### Aram Nikolyanla Anna Akopyanı hansı tellər bağlayır?

Bu arada Ermənistan mətbuatında İrəvanda bayrağımızı yandıran Aram Nikolyanın baş nazir Nikol Paşinyanın xanımı Anna Akopyanla şəxsi münasibətlərə malik olmasına dair məlumatlar yayılıb. Bildirilib ki, Anna Akopyan Ermənistanın 4 geyim brendi içərisində Aram Nikolyanın “Nikolyan” brendinə xüsusi diqqət ayırıb və onun ofisini 2019-ci il 29 apreldə ziyarət edib. Akopyan, həmçinin Nikolyana bu brendi dünyaya çıxarmaq üçün dəstək söz verib. Ermənistan mediası istisna etmir ki, Anna Akopyan geyim tərzində də Nikolyanın yardımından istifadə edir.

Qeyd edək ki, Aram Nikolyan Milli İncəsənət Akademiyasında, daha sonra isə Florensiyada İtalyan Akademiyası (Accademia Italiana) Dizayn Məktəbində təhsil alıb və burada stilistika və moda dizaynı üzrə ixtisaslaşıb. O, “Arm Jeans” və “Rose” şirkətlərinin baş dizayneri, “Şant” və “Armeniya” teleşirkətlərinin stilisti olub. Hazırda “Nikolyan” moda evinin təsisçisi, direktoru və baş dizayneri, Beynəlxalq Dizaynerlər Assosiasiyasının üzvüdür. O, 2013-cü ildən Ermənistan İctimai Televiziyasının stilistika şöbəsinin rəhbəri vəzifəsini daşıyır. Ağır atletika üzrə Avropa çempionatının 14 apreldə baş tutan açılış mərasiminin təşkilatçılarından biridir və yüksək qonorara müqavilə imzalayıb: Azərbaycan bayrağı olan libasların dizaynının da hazırlanması və tikilməsi ona tapşırılıb və o, buna görə 18,9 milyon dram (təxminən 50 min dollara yaxın) qonorar almalıdır, artıq bu məbləğin 12,3 milyon dramını alıb.

*Mübariz FEYİZLİ*

Heydər Əliyev əsrinin 23-cü ili

# Milli ideologiyamızın yaradıcısı



**Bizim milli ideologiyamızın konsepsiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimizin, milli, mədəni, dini ənənələrimiz üzərində qurulmalıdır. Biz XX əsrdə cürbəcür mərhələlərdən keçdik, ayrı-ayrı ideologiyaların təsiri altında qaldıq. İndi xalqımız hər cəhətdən azaddır. Ona görə də lazımdır ki, ümumiyyətlə, düşünən beyinlərimiz, alimlərimiz və o cümlədən, təhsil sahəsində çalışan müəllim ordusu milli ideologiyamızın formalaşması üçün öz fəaliyyətini göstərsin. Bu ideologiyanı qurmaq, yaratmaq, təşkil etmək, eyni zamanda, əməli surətdə həyata keçirmək lazımdır.**

**HEYDƏR ƏLİYEV,**
**Ümummilli lider**

Həyatımızın elə bir sahəsi yoxdur ki, oradakı inkişaf, tərəqqi ümummilli liderimizin adı ilə bağlı olmasın. Bütün dünya da bu həqiqəti qəbul edir ki, Azərbaycanın yeni neft strategiyası Heydər Əliyevin gərgin zəhməti sayəsində reallığa çevrildi. 1993-cü ildə Azərbaycanın parçalanacağını gözləyən, eyni zamanda, o vaxtkı iqtidarın tamamilə ölkəmizin mənafeyinə zidd siyasəti nəticəsində bizdən üz döndərən bir çox iri dövlətlər Onun yürütdüyü siyasət ilə 1994-cü il sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsi" kimi tarixə düşən sazişi imzaladılar. Bununla Azərbaycanda sabitliyə, inkişafa əmin olduqlarını bəyan etmiş oldular. Həmçinin, ölkəmizin müstəqilliyini, təhlükəsizliyini, ərazi bütövlüyünü dəstəklədilər.

Artıq 1995-ci ildə daxili və xarici düşmənlərimiz dərk etdilər ki, onlar Heydər Əliyev siyasətinin, dövlət quruculuğu təcrübəsinin qarşısında acizdilər. Azərbaycan Ümummilli Liderimizin dediyi kimi, "...bundan sonra başına nə gəlirsə gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək". Bəli, ölkəmizə diş qıcayan məkrli düşmənlərin geri çəkilməsi də, dövlət quruculuğunda əsas şərt sayılan sabitliyin yaranması da ümummilli liderimizin adı ilə bağlıdır.

Müstəqilliyimizin möhkəmlənməsində, hüquqi, demokratik dövlət quruculuğu işində ilk milli Konstitusiyamızın xüsusi yeri var. "Heydər Əliyev Konstitusiyası" kimi tarixə düşən Əsas Qanunumuz insan və vətəndaş hüquq və azadlıqlarının təminatlı müdafiəsi sahəsində mükəmməl bir sənəddir. Odur ki, bir çox ekspertlər haqlı olaraq Konstitusiyamızı "İnsan hüquqları manifesti" də adlandırırlar. Bu, ümummilli liderimizin xidmətləridir.

Ölkəmizdə Avropa dəyərlərinə uyğun aparılan hüquqi islahatlar da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Hüquq qaydalarının, qanunçuluğun möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının təminatlı müdafiəsinə görə üçpilləli məhkəmə sistemimizin yaradılması, yeni, müasir tələblərə uyğun hakim korpusunun formalaşdırılması Heydər Əliyevin xidmətləridir.

Şərqdə ilk dəfə ölüm cəzasının ləğv edilməsi Azərbaycanda baş tutdu. Bu gün də bir sıra inkişaf etmiş ölkələrdə hələ də qüvvədə olan bu cəza növünün ölkəmizdə ləğv edilməsi çox cəsarətli addım idi və onu Ümummilli Liderimiz reallaşdırdı. Tarixə belə həkk olundu, belə də qalacaq və yüz illər sonra da insan hüquqlarının müdafiəçiləri bu mövzudan danışanda Ümummilli Liderimizi hörmət və izzətlə yad edəcəklər.

Bütün dünyanın bəhrələnəcəyi Böyük İpək yolu çox qədim ticarət marşrutudur. Uzun illərdir ki, dünya alimləri bu sahədə baş sındırır, Şərqlə Qərbi, ümummiyyətlə dünyanı dolaşan təhlükəsiz və səmərəli nəqliyyat yolu haqqında düşünürlər. Böyük-böyük elmi-tədqiqat institutları bu problemlə məşğuldurlar. Ümummilli liderimiz dünyada yeni müharibə ocaqlarının getdikcə artdığı, Şərqlə Qərbin ziddiyyətli bir dövründə bu qədim İpək yolunun bərpasını gündəmə gətirdi və məntiqlə sübut etdi ki, bu yola alternativ heç bir layihə ola bilməz. Təbii ki, bu layihədə əsas keçid Azərbaycandır və illər keçdikcə onun bəhrəsini daha çox görəcəyik.

Heydər Əliyev Azərbaycanın enerji təhlükəsizliyini etibarlı təmin etmək üçün hələ 1969-1982-ci illərdən iri layihələr həyata keçirməyə başladı. Müstəqillik dövründə bu işlər daha geniş formada davam etdirildi. Bu gün isə həmin strategiya Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Bu məsələ hər bir dövlət üçün çox mühüm, həyati əhəmiyyətli bir işdir, dövlətin müstəqilliyinə qarant duran, digər ölkələrdən asılılığına imkan verməyən taleyüklü məsələdir. Ümummilli Liderimiz bu sahədə də zəruri olan hər şeyi edib.

Ümummilli Liderimiz istər birinci dəfə, istərsə də ikinci dəfə Azərbaycanda hakimiyyətə gələndə siyasətdə bir səviyyəsizlik, bəsitlik vardı. Böyük siyasətçi bunlara son qoydu, dövlətin idarə olunmasında, xarici və daxili siyasətində bir məktəb yaratdı.

Bu siyahını istənilən qədər uzatmaq olar. Hansı sahəni götürsək, orada ümummilli liderimizin işini, əməlini görəcəyik. Həmin sahənin qurucusu, yaradıcısı Heydər Əliyevin olduğunun təsdiqini görəcəyik. Bunların arasında hər birimizin diqqətini çəkən çox vacib, onun hazırlanması üçün yüksək ağıl, zəka, dünya dövlətlərinin tarixini və təcrübəsini bilmək, uzaqgörənlik, öz xalqını sevmək kimi mühüm şərtlərin olmasını tələb edən bir məsələ də var. Bu da dövlətin milli ideologiyasıdır. Bu da birmənalı olaraq ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Milli ideologiyamızın konsepsiyasını ulu öndərimiz diktə etdi, onun əsaslarını göstərdi, inkişaf istiqamətlərini müəyyən etdi.

1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti ölkədə demokratik bir cəmiyyət qurmaq üçün çox işlər gördü. On yeddi ay fəaliyyət göstərən parlament çox mühüm qanunlar, qərarlar qəbul etdi. Hətta bu qısa zamanda milli ideologiyamızı müəyyən etdi. Bu ideologiyanın konsepsiyaları da qismən aydın idi. Üçrəngli bayrağımızda bunlar əksini tapmışdı. Ancaq onları inkişaf etdirməyə, formalaşdırmağa demokratik respublikanın mövcud olduğu 23 ayda mümkün olmadı. Bolşevik istilası hər şeyi yarımçıq qoydu. Əsrin sonunda - müstəqilliyimiz bərpa olunandan sonra ADR-in ənənələrini davam etdiriləcəyi bəyan edilsə də ilk illər bu yolda heç nə etmək mümkün olmadı. Çünki Ümummilli Liderimizin dediyi kimi, ölkəyə rəhbərlik etmək üçün təkcə istək, iddia azdır. Gərək biliyin, bacarığın, elmin, savadın buna çatsın. İkincisi, güclü iradəyə, xarakterə malik olmalısan. Üçüncüsü, idarəçilik, dövlət quruculuğu təcrübən olmalıdır.

Təbii ki, hər bir dövlətin ideologiyası olur. Bu ideologiya dünyəvi və milli dəyərlərlə zəngin olanda həmin dövlətin inkişafı da yüksək keyfiyyətlərə cavab verir. Yəni, həm xalqın milli, mədəni, dini ənənələri yaşadılır, inkişaf etdirilir, həm də həmin dövlətin inkişaf edən ölkələrə inteqrasiyası baş verir. Əgər bunlar paralel inkişaf etdirilməsə, onda ölkənin tərəqqisi də olmaz.

Çox-çox təəssüflər ki, müstəqilliyimizin ilk illəri hakimiyyətdə olanların və buna can atanların heç birində bu keyfiyyətlər yox idi və milli ideologiyanın mahiyyətini olduğu kimi dərk etmir, onu dövlət quruculuğu prinsipləri ilə uyğunlaşdıra bilmirdilər. Daha doğrusu, ADR-in təcrübəsi olsa belə dövlətin milli ideologiyasını müəyyən edə bilmirdilər. Əksinə, şəxsi ambisiyalarla çıxış edənlər ölkənin inkişafını bütün sahələrdə ləngidir, daha doğrusu, onun dayaqlarını laxladırdı. İqtisadiyyatdakı və siyasətdəki uğursuzluqlar ölkəni uçuruma aparırdı. Hərə ölkəni bir tərəfə çəkirdi. Hakimiyyət uğrunda "mübarizəyə qoşulanlar"ın hərəsi bir xarici dövlətin ətəyindən yapışmışdı. Onların göstərişləri ilə oturub-dururdular. Təbii ki, bu asılılıq heç vaxt müstəqil siyasət yeritməyə imkan verməzdi. Xarici qüvvələr öz ideologiyalarını diktə edirdilər. Bu isə azərbaycançılıq ideyasından, milli ideologiyadan çox uzaq bir iş idi.

Azərbaycançılıq anlayışını qanı, canı ilə duymayan kəslər milli ideologiyamızı yaratmağa, inkişaf etdirməyə, formalaşdırmağa ağlı, zəkası, iradəsi, qətiyyəti çatmazdı.

Tarixi təcrübə də təsdiqləyir ki, milli ideologiyası olmayan dövlət müstəqil ola bilməz. Yad təsirlərə məruz qalar, nəticədə yad ideologiyaya xidmət edər. Kənar ideologiyaya xidmət etmək isə elə başqasının təsiri altında olmaq kimi bir şeydir. Ümummilli liderimiz Heydər Əliyev birinci dəfə Azərbaycana rəhbərlik etdiyi illərdə - milli ideologiyanı formalaşdırmağın mümkün olmadığı dövrdə o, azərbaycançılıq ideyasını inkişaf etdirdi. Azərbaycan dilinin inkişaf etdirilməsi, bunun davamı olaraq 1978-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan dili "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" kimi təsbit olunması, tariximizi saxtalaşdıranlara qarşı Heydər Əliyevin sərt mövqeyi, bütün sahələr üzrə milli kadrların hazırlanması sovet ideologiyasının içində azərbaycançılığı formalaşdırır, milli ruhu yüksəldirdi.

Bütün bunlar ardıcıl aparıldığından xalqın milli yaddaşını təzələdi. İmperiyanın ciddi qadağalarına baxmayaraq, şüurlardakı bu intibah getdikcə qarşısıalınmaz prosesə çevrildi. Və artıq əsrin sonunda alovlandı. O illərdə milli ruhlu bəzi əsərlərin yaranması, yeni sənət əsərlərinin ortaya çıxması, dilçilərin və tarixçilərin xalqın milli ruhundan qaynaqlanan yeni tədqiqat əsərləri yazmaları da bu proseslərin məntiqi nəticəsi idi.

Min dəfə təəssüflər olsun ki, müstəqilliyimizi yenidən qazananda bu dəyərlər inkişaf etdirilmədi, dövlət tərəfindən bu taleyüklü məsələyə diqqət yetirilmədi. Bunu elmi şəkildə hazırlayıb ortaya qoyan zəka sahibi olmadı. Odur ki, dövlət quruculuğu işi də yubanırdı. 1993-cü ilin iyununda xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə qayıdan Ümummilli Liderimiz ilk vaxtlar ölkəni fəlakətdən xilas etdi. Dövlətçiliyi qorudu. Yalnız bundan sonra milli ideologiyamızın formalaşması üçün qəti addımlar atdı. Daha doğrusu, ölkədə həyata keçirilən bütün islahatlar bu ideologiyaya xidmət edirdi, onu formalaşdırırdı. İndi onu sistemli şəkildə öyrənmək, fəaliyyətimizə tətbiq etmək, proqram şəklində yeni nəslə öyrətmək məsələsi gündəlikdə dururdu. Məhz buna görə, 1998-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının 6-cı ildönümünə həsr olunmuş mərasimində ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın Milli İdeologiyası haqqında geniş nitq söylədi, onun əsaslarını şərh etdi. Bildirdi ki, bizim həm xarici siyasətdə, həm daxili siyasətdə, həm ictimai-siyasi sahədə, həm də sosial-iqtisadi sahədə gördüyümüz işlər milli ideologiyamızın üzərində qurulur. Hər kəs öz fəaliyyətini düzgün nizamlamaq, dövlətçiliyə xidmət etmək üçün bu ideologiyanın əsaslarını bilməli və işini də onun əsaslarına uyğun qurmalıdır.

Odur ki, Ümummilli Liderimiz bu nitqində milli ideologiya və onun əsasları haqqında da geniş məlumat verdi. Qeyd etdi ki, milli ideologiyanın əsasını birinci dövlətçilik təşkil edir: "Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır". Odur ki, böyük öndər tövsiyə edirdi: milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun. Çünki əks halda bu ideologiya formalaşa bilməz, yad təsirlərə tez məruz qalar, zərbə altına düşər.

Ümummilli Liderimiz bu məsələdə qardaş Türkiyəni örnək kimi göstərirdi. Qeyd edirdi ki, Türkiyədə insanlarda milli vətənpərvərlik hissi, Vətənə sədaqət hissi çox yüksəkdir. Türkiyənin belə güclü, qüdrətli dövlət olması ilk növbədə bu amillə - milli vətənpərvərlik, milli qürur hissləri ilə bağlıdır: "Gərək hər bir vətəndaş öz Vətəninə görə, öz millətinə görə, öz xalqına görə, öz ana dilinə görə milli qürur hissi keçirsin, azərbaycanlı olması ilə fəxr etsin". Ümummilli liderimiz fəxr edirdi azərbaycanlı olmağı ilə: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm, mən azərbaycanlıyam". Çünki bu hisslər - milli vətənpərvərlik, milli qürur hissi olmasa dövlətçiliyi yaşatmaq çətindir. Dövlət dövlətçiliyi möhkəmləndirirsə, bunun üçün cəmiyyətə arxalanır. Çünki bu siyasət söz olaraq, yalnız dildə deyilirsə, kağız üzərində qalırsa onun heç bir əhəmiyyəti olmayacaq. Ümummilli Liderimiz bu məsələni çox incəliklə şərh etdi. Bildirdi ki, cəmiyyət insanlardan ibarətdir. İnsanların hər biri gərək əsl vətəndaş olsun, vətənpərvər, milli qürur hissi ilə yaşayan insan olsun. Çünki dövlətçiliyi inkişaf etdirən vətəndaşlardır. Odur ki, böyük öndər bunu milli ideologiyamızın əsas hissəsi adlandırırdı. Dövlətçilik yoxdursa, milli ideologiyadan da söhbət gedə bilməz.

Böyük dövlət qurucusu Heydər Əliyev həmin nitqində bildirdi ki, milli ideologiyamızın ikinci hissəsi milli-mənəvi dəyərlərimizdir: "Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".

Bəs milli-mənəvi dəyərlərimizin əsasları hansılardır? Ümummilli Liderimiz sözügedən nitqində milli-mənəvi dəyərlərimizin də əsaslarını şərh etdi, əsaslandırdı: "Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs Qurani-Şərifdə öz əksini tapıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın mütəfəkkir insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın siyasi və dövlət xadimləri, böyük elm və mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıblar. Bu, bizim adət-ənənələrimizdir. Bu, bizim milli-əxlaqi mentalitetimizdir, bu, bizim bütün başqa mənəvi dəyərlərimizdir".

Dünyada bütün xalqların milli-mənəvi dəyərləri var. Amma elə "dəyərlər" var ki, onu "el içinə çıxartmaq", kiməsə göstərib, öyrənmək olmur. Çünki onu sivilizasiya qəbul etmir. Bəlkə də, belə qüsurlu adətlər bütün xalqlarda olub. Amma onlar inkişaf etdikcə bundan xilas olublar. Söhbət ondan gedir ki, dəyərlər 5 əsrə, 10 əsrə formalaşmır, uzun zaman gərək olur. Sonralar mənimsənilən adətlər müsbət təcrübədə əsrlərin sınağından çıxmış həmin dəyərlərə uyğunlaşdırılıb qəbul edilir. Böyük öndərimiz fəxrlə deyirdi ki, biz qürur duymalıyıq ki, bizim milli-mənəvi dəyərlərimiz bizi utandırmır, heç nəyə ləkə salmır, əksinə bizi xalqlar yanında başı uca edir. Bu da xalqımızın çox zəngin mədəniyyətə, əxlaqa, tarixə malik olduğunu təsdiqləyir. Sovet hakimiyyəti dövründə kommunist ideologiyası vardı. Və bu ideologiya bizim milli-mənəvi dəyərlərimizi sıxışdırmaq istəyirdi. Ancaq sovet ideologiyasının şüurlarda kök salmasına nə qədər güc tətbiq edilsə də, milli-mənəvi dəyərlərimizə üstün gələ bilmirdi. Çünki milli-mənəvi dəyərlərimiz çox dərin köklərə malikdir. Odur ki, bu dəyərləri heç laxlada da bilmədilər.

Və yaxud başqa bir yanaşma. İçimizdən çıxıb, özümüzü bəyənməyənlər də vardı. O illərdə, bu gün də belələri var. Milli dəyərlərimizi köhnəlik sayırdılar, özlərini qabaqcıl, bilikli, mütərəqqi insanlar hesab edirdilər. Ancaq yanılırdılar. Nə qədər çalışsalar da heç kim qan yaddaşımızdan bu dəyərləri silə bilmədi. Çünki milli dəyərlərimizə yad olanları zorla adətlərimizə çevirmək olmur. Nə qədər təsirli vasitələr tətbiq edilsə də, müəyyən mərhələdən sonra o özü çıxdaş olur. Çünki zorla xalqın varını, dövlətini almaq olar, sərvətlərini talamaq olar, ancaq milli-mənəvi dəyərlərini almaq olmaz, o qanda yaşayır. Qan yaddaşını isə heç nə ilə silmək olmur. Amma, böyük öndərimizin dediyi kimi, "bəzi konyuktur xarakterli insanlar bizim öz milli-mənəvi dəyərlərimizə xor baxırdılar, özlərini onlardan ayırmaq istəyirdilər. Guya ki, "bu geri qalmış bir şeydir, bizim keçmişdə olan adətlərimizdir, biz bundan deyilik, biz qabaqcılıq, nə bilim mütərəqqiyik, filanıq". Ümummilli Liderimiz deyirdi: "Milli-mənəvi dəyərlərimiz bizim ana dilimizdir, Azərbaycan dilidir, bizim adət-ənənələrimizdir. Bir də təkrar edirəm, bizim milli-əxlaqi mentalitetimizdir. Bunların hamısı ilə biz fəxr edirik və fəxr etməliyik. Bizim bütün təbliğatımız, bütün elmi işlərimiz insanlarda bu milli-mənəvi dəyərlərə görə qürur hissi, iftixar hissi doğurmaq və milli-mənəvi dəyərlərə sədaqət aşılamaqdan ibarət olmalıdır". Bəli, milli ideologiyamızın bir istiqaməti olan bu dəyərləri heç bir qüvvə sarsıda bilmədi. Kommunist ideologiyasının dilimizə, dinimizə, adət-ənənələrimizə gücü çatmadı. Qoruyub, saxladıq. Odur ki, Ümummilli Liderimiz hamıya tövsiyə edirdi ki, indi bu ideologiyanı inkişaf etdirmək, genişləndirmək lazımdır.

Ümummilli liderimiz milli ideologiyamızla bağlı söylədiyi nitqində maraqlı bir əhvalat da danışdı. Dedi ki, ötən əsrin 70-ci illərində Moskvadan respublikamıza gələn nümayəndə heyəti şəhərləri, kəndləri gəzirdilər. Onları heyrətləndirən məsələlərdən biri də adət-ənənələrimiz, milli dəyərlərimiz oldu. Deyirdilər ki, "biz filan yerə getdik, 10-15 gənc oturmuşdu. Bizi görən kimi hamısı ayağa qalxdı. Biz təəccüb etdik. Necə oldu ki, bunlar ayağa qalxdılar. Bu, niyə belədir? Axı, indi Rusiyada bir kəndə, şəhərə gedək, bizi görüb heç danışdırmayacaqlar, heç bizə fikir verməyəcəklər. Amma burada bunlar ayağa qalxdılar". Heydər Əliyev onları başa salır ki, bu, təbii bir haldır. Xalqımızın xüsusiyyətidir, mentalitetimizdir. Kiçiyin böyüyə, ev sahibinin qonağa hörmətidir. Əsrlər boyu əcdadlarımız tərəfindən qorunub saxlanılıb, bizə çatdırılıb. Odur ki, Ümummilli Liderimiz mentalitet sözünü mənfi bir məfhum kimi qiymətləndirənlərə də iradını bildirdi: "Bəzən də deyirlər ki, bəli, Azərbaycan xalqının mentaliteti belədir. Yəni, mədəniyyəti o qədər yoxdur, dünya mədəniyyəti ilə hələ o qədər yaxınlaşmayıbdır, filan olmayıbdır". Ümummilli Liderimizin rusiyalı qonaqlarla bağlı danışdığı əhvalat kifayətdir deyək ki, azərbycanlıların öz mentaliteti ilə öyünməyə haqqı var.

Ümummilli Liderimiz İslam dinini milli-mənəvi dəyərlərimizin əsaslarından biri kimi dəyərləndirir: "Müqəddəs kitabımızda, Qurani-Şərifdə böyük əxlaqi normalar əks olunubdur. Onlardan səmərəli istifadə etmək lazımdır və onları yaymaq, inkişaf etdirmək lazımdır". Amma bir məsələni önə çəkir. Bildirir ki, "biz imkan verməməliyik ki, dini bəzi şəxslər məqsədləri üçün istismar etsinlər. Buna imkan verməməliyik. Dinin ondan öz şəxsi məqsədləri üçün istifadə etmək istəyən ayrı-ayrı adamların əlinə keçməsinə imkan verməməliyik. Din həqiqi din xadimləri tərəfindən istifadə və tətbiq olunmalıdır". Etiraf edək ki, keçmişdə də, bu gün də dinimizdən şəxsi məqsədlər üçün istifadə edənlər həmişə ona qarşı mənfi rəyin formalaşmasına səbəb olublar. Dini fundamentalizm də, fanatizm də bundan irəli gəlib.

Böyük öndər milli ideologiyamızı təkcə bu dəyərlər üstündə yox, həm də bəşəri dəyərlər üzərində formalaşdırmağı ən vacib amil sayırdı. Çünki bunsuz dünyaya inteqrasiya, dünyada nüfuz qazanmaq olmaz: "Ümumbəşəri dəyərlər, birinci növbədə, bizim yaratdığımız Konstitusiyada əsas məqsəddir. Biz dünyəvi dövlət qururuq. Biz hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Bax, bu bir cümlədə ümumbəşəri dəyərlərin ifadəsi öz yerini tapıbdır". Ancaq böyük öndər dönə-dönə qeyd edirdi ki, ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərimiz vəhdətdə inkişaf etməli, formalaşmalıdır. Bu sintez milli ideologiyamızın bu günü və gələcəyidir.

Ümummilli liderimiz Heydər Əliyev milli ideologiyamızın bu konsepsiyasını incəliyinə qədər izah edir, onun ayrı-ayrı müddəalarına aydınlıq gətirir, bildirir ki, milli-mənəvi dəyərlər ilə ümumbəşəri dəyərləri birləşdirib, zənginləşdirəndə biz xalqımızın ümumi dəyərlərini, mənəvi dəyərlərini yaradırıq. Bunun içərisində isə həm demokratiya, həm hüquq normaları, həm dünyəvi dövlət, həm də insan azadlığı, insan hüquqlarının qorunması, plüralizm, sərbəst ticarət, insan sərbəstliyi, sərbəst bazar ticarəti, sərbəst bazar iqtisadiyyatı var - bunlar hamısı ümumbəşəri dəyərlərin bizim milli-mənəvi dəyərlərə vəhdətindən meydana gələn müddəalardır.

Bütün bunlar milli ideologiyamızın əsaslarıdır. Onları birgə inkişaf etdirib, Azərbaycan xalqının ümumi mənəvi dəyərlərini yaradırıq. Ancaq milli ideologiyamızın bu əsasları özlüyündə bir əsas üzərində qurulur. Heydər Əliyev bu əsası belə izah edirdi: "Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli-mənəvi dəyərlər - bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir".

Ulu Öndərin o dövrdə apardığı siyasətin nəticəsidir ki, bu gün Azərbaycan dövləti möhtəşəm xalq-ordu-Prezident birliyi sayəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" əməliyyatı nəticəsində tarixi Qələbə qazanaraq 30 ildən bəri düşmən tapdağı altında qalmış ərazilərimizə, nəhayət ki, sahib çıxmışdır. Bu baxımdan Vətən müharibəsində qazanılmış tarixi Zəfər, ilk növbədə, Heydər Əliyev ideologiyasının təcəssümü kimi dəyərləndirilməlidir.

Zaman keçdikcə ideyaları qəlbimizdə əbədi yer alan Heydər Əliyevin zəngin dövlətçilik həyatı, fəaliyyəti, təcrübəsi, siyasi irsi Azərbaycanı daha parlaq gələcəyə aparır. Ulu Öndərimizin Azərbaycan sevgisi və ömür yolu gələcək nəsillərə bir nümunədir.

***Hümmət Vəliyev,***
***Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin Elmi-tədqiqat və metodiki iş şöbəsinin rəisi***

# YAP ilə AK Parti arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının İstanbul vilayət təşkilatında görüş keçirilib

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.

AZƏRTAC-ın Türkiyəyə ezam olunmuş xüsusi müxbiri xəbər verir ki, YAP İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyevdən ibarət nümayəndə heyəti ilə aprelin 15-də Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) İstanbul vilayət təşkilatında görüş keçirilib.












Görüşdən əvvəl Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və AK Parti Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş mətbuat konfransında jurnalistlərin suallarını cavablandırıblar.

Numan Kurtulmuş bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri "Bir millət, iki dövlət" təfəkkürü ilə sürətlə inkişaf edir. Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın yaxın dostluq və qardaşlıq münasibətləri, dövlət qurumlarımızın da işbirliyi ilə iki qardaş ölkə arasında münasibətlər sürətlə inkişaf edərək hazırda müttəfiqlik səviyyəsinə yüksəlib.

Azərbaycan-Türkiyə əlaqələrinin bütün mərhələlərdə daha da möhkəmləndiyini vurğulayan AK Parti Sədrinin birinci müavini diqqətə çatdırıb ki, təkcə dövlətlərimiz arasında əlaqələr deyil, qardaş xalqlarımızın münasibətləri də gündən-günə inkişaf edir.

İşğal altındakı torpaqlarının azad edilməsi uğrunda 44 günlük qəhrəmanlıq dastanının yazıldığı Vətən müharibəsində də Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən Numan Kurtulmuş deyib ki, Türkiyənin beynəlxalq aləmdə nüfuzu, milli müdafiə sənayesi onun bütün imkanları ilə Azərbaycanın yanında olmasına şərait yaratdı. Nəticədə beynəlxalq təşkilatların, o cümlədən Minsk Qrupunun 30 il ərzində bu istiqamətdə heç bir addım atmadığı problem Türkiyənin köməyi və Azərbaycanın mübarizəsi ilə həllini tapdı.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Türkiyədə baş vermiş zəlzələ zamanı həyatını itirənlərlə bağlı başsağlığı verərək, yaralıların tezliklə şəfa tapmasını arzulayıb.

Tahir Budaqov bildirib ki, dərin köklərə malik Azərbaycan-Türkiyə münasibətləri bir çox sınaqlardan çıxıb. Əlaqələrimiz 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana göstərdiyi yüksək siyasi, mənəvi dəstəyindən sonra keyfiyyətcə yeni müstəviyə qədəm qoyub. Azərbaycan xalqı bu dəstəyi, qardaşlığı, dostluğu heç zaman unutmayacaq.

YAP-ın Azərbaycan qarşısında duran yeni vəzifələrin həyata keçirilməsi, məqsədlərə nail olunması üçün genişmiqyaslı fəaliyyət həyata keçirdiyini vurğulayan Tahir Budaqov deyib: "İyunun 2-də Türkiyəyə səfərimiz zamanı Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) ilə Yeni Azərbaycan Partiyası arasında imzalanmış əməkdaşlıq Sazişini xüsusi qeyd etmək istəyirəm. Həmin Saziş imzalandıqdan sonra AK Parti ilə Yeni Azərbaycan Partiyası bir çox layihələri həyata keçirib, uğurlu əməkdaşlıq edib. Bu qısa zaman kəsiyində hətta beynəlxalq səviyyəli tədbirləri də birlikdə reallaşdırmışıq".

Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının regionda yeni reallıqlar yaratdığını söyləyən Tahir Budaqov postmünaqişə dövründə Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi bərpa-quruculuq işlərində Türkiyənin ölkəmizə verdiyi dəstəyi xüsusi vurğulayıb. Qeyd edib ki, Türkiyədə zəlzələ nəticəsində zərər çəkmiş bütün bölgələrdə aparılacaq quruculuq işlərində də ölkələrimiz birlikdə olacaq, bu işləri birgə həyata keçirəcək.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini vurğulayıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi dostluq əlaqələri bütün bölgədə sabitlik və inkişaf üçün möhkəm əsaslar yaradıb. Bu proses artıq bütün dünyanın diqqətini cəlb edib, beynəlxalq güclərin maraq dairəsinə düşüb. Son illərdə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi və liderliyi ilə həyata keçirilən tədbirlər nəticəsində türk dövlətlərinin daha da yaxınlaşmasının, vahid bir təşkilat olaraq fəaliyyət göstərməsinin şahidi oluruq. Yaranmış tarixi fürsəti düzgün qiymətləndirməli və bu imkandan türk dövlətlərinin hamısının faydalanmaq şansını əldən verməməliyik.

Sonra xatirə şəkli çəkdirilib.

# YAP nümayəndə heyəti İstanbulda Ayasofya məscidini ziyarət edib

## Nümayəndə heyətinin Türkiyəyə səfəri başa çatıb

Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti aprelin 15-də İstanbulda Ayasofya məscidini ziyarət edib.

YAP İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyevdən ibarət nümayəndə heyətinə bu qədim dini məbədin tarixi haqqında ətraflı məlumat verilib.










Bildirilib ki, istifadəyə verildiyi 537-ci ildən 1453-cü ilədək kilsə, həmin tarixdən 1934-cü ilədək məscid, sonradan muzey olan Ayasofya yenidən məscid-muzey kimi fəaliyyət göstərir. Türkiyə Nazirlər Kabinetinin 1934-cü il noyabrın 24-də qəbul etdiyi qərarla Ayasofya məscid kimi fəaliyyətinin dayandırıb, muzey olaraq ziyarətçilərin üzünə açılıb. 2020-ci il iyulun 10-da Türkiyənin Dövlət Şurası (Danıştay) Ayasofyanın muzey kimi fəaliyyət göstərməsi ilə bağlı 1934-cü ildə qəbul olunan qərarı ləğv edib. Həmin gün Prezident Rəcəb Tayyib Ərdoğan Ayasofyanın məscidə çevrilməsi haqqında fərman imzalayıb. Beləliklə, 1985-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən Ayasofya 86 ildən sonra yenidən müsəlmanlar üçün ibadət yerinə çevrilib.

Nümayəndə heyətinin üzvləri Ayasofya məscidi ilə tanışlıqdan sonra vətəndaşlara söhbət ediblər. Bildirilib ki, Türkiyə-Azərbaycan birliyi dünyada və regionda böyük əhəmiyyətə malikdir. Vətəndaşlar da "Bir millət, iki dövlət" tezisini bir daha xatırladıblar.

Sonra nümayəndə heyəti Fatih Bələdiyyəsinin nəzdindəki kitabxanada olub. YAP nümayəndə heyətinin üzvlərinə kitabxananın fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, buradakı kitab fondu həm tələbələr, həm də vətəndaşlar üçün əlçatandır.

Nümayəndə heyətinin üzvləri daha sonra Bağcılar Bələdiyyəsinin təşkil etdiyi xalq iftar mərasimində iştirak ediblər.

Dostluq və qardaşlıq mesajlarının verildiyi iftar mərasimində dünyaya nümunə olan Azərbaycan-Türkiyə birliyinin sarsılmazlığı bir daha vurğulanıb. Bildirilib ki, Azərbaycan və Türkiyə tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olublar. Türkiyə son 20 ildə Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli inkişaf yolu keçib və dünyada söz sahibinə çevrilib.

YAP nümayəndə heyəti İstanbulun Zeytinburnu ərazisindəki İmam Cəfəri Sadiq məscidində yerli sakinlərlə görüşüb. Görüşdə Azərbaycanın və Türkiyənin vahid yumruq kimi bütün milli hədəfləri reallaşdırmaq əzmində və iqtidarında olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan və Türkiyə arasında münasibətlər ölkələrimizin rəhbərləri tərəfindən daha yüksək səviyyəyə çatdırılmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.

Bununla da YAP nümayəndə heyətinin Türkiyəyə səfəri başa çatıb.

**Türkiyədəki seçkilər Azərbaycan siyasətinin gözü ilə...**

# Türkiyə iqtisadiyyatı son 20 ildə 3 dəfə böyüyüb



*Günel ABBASOVA*

Qardaş Türkiyədəki prezident seçkiləri gününə təxmini, bir ay zaman qalıb. Türkiyədən əlavə dünyanın bir çox yerlərində, xüsusən də, başqa türkdilli ölkələrin siyasi-ictimai çevrələrində bu hadisəyə diqqət çoxdur. Seçkilərlə bağlı çox müzakirələr gedir. Türkiyə, minillik təcrübə sistemli, tarixli, böyük dövlətdir, xalqı da tam formalaşmış toplumdur. Bu xalq kənardan müdaxiləyə, dəstəyə ehtiyac olmadan, özü öz seçimini etmə qüdrətindədir.

Bütün bu hadisələr fonunda əksəriyyət türk dövlətləri iqtidara yenidən Rəcəb Tayyib Ərdoğanın gəlməsi arzusundadır. Bəli, bu sadəcə arzudur. Çünki seçmək və seçilmək yalnız ölkə daxilində baş verməli olan məsələdir. Qardaş ölkələr və dost dövlətlər seçki mərhələsində yalnız həqiqətləri, üstünlükləri vurğulayaraq, bəzi suallara cavab axtararaq dəstəyini nümayiş etdirə bilər. Belə olduqda, niyə Rəcəb Tayyib Ərdoğan seçilməlidir, sualının cavabı da aydınlaşır, çünki qardaş Türkiyənin hazırkı rəhbəri ilə bağlı hər şey açıq və birmənalıdır.

Bu mənada "Yeni Azərbaycan" qəzeti bir ay sonra qardaş Türkiyədə keçiriləcək prezident seçkiləri ilə bağlı yeni rubrikaya başlayır. Diqqətinizə çatdırmaq istərdik ki, seçkilər yekunlaşana qədər qəzetimizdə yerli siyasətçilərin gözü ilə Türkiyədəki vəziyyət şərh ediləcək...

Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası işçi qrupunun üzvü Vüqar Bayramovun sözlərinə görə, Türkiyədə baş tutacaq seçki son 100 ilin ən vacib seçimlərindən hesab olunur: "Bir ay sonra qardaş Türkiyədə seçki baş tutacaq. Türkiyə vətəndaşları öz prezidentlərini və millət vəkillərini seçəcəklər. 2023-cü ildə Türkiyə vətəndaşlarının seçimi uzun illər üçün qardaş dövlətin strategiyasını müəyyənləşdirəcək.Təbii ki, seçmək hüququ Türkiyə vətəndaşlarındadır. İnanırıq ki, qardaş dövlətin vətəndaşları öz doğru seçimləri ilə ölkələrinin inkişafını dəstəkləyəcəklər. Türkiyə Azərbaycanın haqq işinə hər zaman dəstək verən ölkələrdəndir. İstər Vətən müharibəsində, istərsə də Qarabağ və Şərqi Zəngəzurda quruculuq prosesində Türkiyənin dəstəyi hər zaman hiss edilib. İşğaldan azad olunan ərazilərimizdəki hər iki beynəlxalq hava limanlarının açılışında, Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin təməlqoyma mərasimində Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı və eləcə müttəfiqlik bəyannaməsinin Şuşada imzalanması da bunları təsdiq edir".

Deputat qeyd edib ki, son illər qardaş ölkə iqtisadiyyatında müşahidə edilən volatilliyə, məzənnə enişlərinə və inflyasiyaya rəğmən Türkiyə iqtisadiyyatı son 20 ildə real ifadədə 3 dəfə böyüyüb: "2003-cü ildə 314 milyard dollar ÜDM-ə malik olan Türkiyə iqtisadiyyatı indi 900 milyard dollardan böyükdür. Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, bu il Türkiyədə ÜDM-in 1 trilyon 29 milyard dollara çatması gözlənilir. Bu isə o deməkdir ki, xarici şoklar olmazsa, bu il Türkiyə trilyon dollarlıq iqtisadiyyata malik ölkələr qrupuna daxil olacaq. Digər tərəfdən, Türkiyə 20 il öncə daha çox aqrar və xidmət sektorları üzrə ixtisaslaşmışdısa, indi ölkə müasir sənaye dövlətinə çevrilməkdədir. Türkiyə hazırda hərbi, avtomobil sənayesində xüsusi üstünlüyə malik olan ölkələrdən hesab olunur. Türkiyədə seçkinin nəticələri region üçün də əhəmiyyətlidir. İnanırıq ki, nəticələr mövcud düzənin möhkəmlənməsinə xidmət edəcək".

# Aksiyanın 127-ci günü...

Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclərin və ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası 127 gündür davam edir.

Aksiya iştirakçıları ötən gün yüksək fəallıq nümayiş etdirib, səhər saatlarında hər zaman olduğu kimi, Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Aksiya iştirakçıları bu dəqiqələrdə fəallıq göstərir, Azərbaycan cəmiyyətinin haqlı tələblərinin yerinə yetirilməsini istəyirlər. Tələblər və şüarlar dəyişməz olaraq qalır. Azərbaycan, rus və ingilis dillərində "Azərbaycan milləti, qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirən aksiya iştirakçıları tələbləri yerinə yetirilənədək etirazlarını davam etdirəcəklərini bildirirlər.

Həmişəki kimi, ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır. Yolda nəqliyyatın sərbəst hərəkətinə heç bir maneə yoxdur.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.



# Partiya sədrinin “yan” reallığı...

## Qeyri -“REAL” müqayisə

“REAL” Partiyasının sədri İlqar Məmmədovu hər mənada tükənmiş bir siyasətçi kimi təqdim etmək daha doğru olardı. Bir vaxtlar xüsusi bir layihə qismində təmtəraqla siyasi səhnəyə çıxarılan bu şəxs ssenari üzrə ona verilən rolu o qədər zəif və sönük ifa etdi ki, cəmiyyətdə ona maraq həmən söndü. Belə demək mümkündürsə, onun ulduzu elə siyasi fəaliyyətinin başlanğıcındaca qürub etdi. Bu da ilk növbədə “REAL” sədrinin siyasi fəaliyyətini reallıqdan uzaq utopiyalar üzərində qurmasının, daha çox qərəzə əsaslanmasının, rəhbərlik etdiyi partiyanın tezislərini Azərbaycana xoş niyyət sərgiləməyən dairələrin sifarişləri əsasında hazırlamasının və əlbəttə ki, özünün potensialının qabın dibinədək aşağı səviyyədə olmasının məntiqi təzahürüdür. Budur, İlqar Məmmədov siyasi qərəzə söykənən və sağlam məntiqlə bir araya sığmayan növbəti açıqlamaları ilə yenidən qarşımızdadır.

### İqtisadi mövzuda siyasi qərəz

Bu dəfə “REAl” Partiyasının sədri İlqar Məmmədov Ermənistanla Azərbaycan arasında sosial-iqtisadi göstəricilər əsasında müqayisə apararaq təcavüzkar ölkənin guya demokratik islahatlar həyata keçirməsi sayəsində sosial rifahının bizdən yaxşı olmasını isbat etməyə xüsusi canfəşanlıq göstərir. Sözsüz ki, İ.Məmmədovun reallıqdan uzaq bu sərsəm müqayisəsi normal iqtisadi məntiqdən çox uzaqdır. Partiya sədri siyasi qərəzə söykəndiyindən bu cür nataraz fikirlər səsləndirir. Məgər İlqar Məmmədov bilmir ki, Ermənistan iqtisadiyyatı və istehsal-sənaye müəssisələri tamamilə Rusiyanın nəzarəti altındadır? Forpost ölkənin, yanacaq-enerji, sənaye, metallurgiya, infrastrukturlar, dəmir yolları, telekommunikasiya, bank, sığorta sektoru Rusiyanın inhisarındadır, yerdə qalan digər bank-sığorta və turizm müəssisələri isə İrana məxsusdur. Təkcə, “Qazprom”, “MTS”, “Teghout” QSC, “VTB” Bank, “Nairi Infrastructure Capital Ltd” , “Mellat İran” , Acko” və sair şirkətlər bu ölkənin bütün iqtisadi sferalarına nəzarət edir. Bu necə azad iqtisadiyyatı olan ölkədir ki, bütün strateji iqtisadi resurslarını ruslar və iranlılar idarə edir? Həmçinin, Ermənistan iqtisadiyyatı Rusiyadan və İrandan gələn pul köçürmələri, xarici ölkələrdəki erməni fondlarından yönləndirilən ianələrdən və beynəlxalq maliyyə institutlarından əldə edilən kreditlər hesabına ayaq üstündə saxlanılır. Bu ölkə hər il öz iqtisadi-maliyyə-büdcə öhdəliklərini bağlamaq üçün xaricdən ən azı 1,5 milyard dollar borc alır.

Hazırda Ermənistanın xarici dövlət borcu 10,6 milyard dollar təşkil edir. Ölkənin dövlət büdcəsi isə 2023-cü ildə 2 trilyon 591 milyard dram, yəni 6,6 milyard dollar təsdiqlənib. İlqar Məmmədovun həsəd apardığı Ermənistanın borcu dövlət büdcəsindən 4 milyard dollar çoxdur. Üstəlik, ilin sonunadək borcun 1,2 milyard dollar artacağı gözlənilir.

Ölkə büdcənin 25-30 faizini xarici kreditlər, ianələr hesabına doldurmaq məcburiyyətində qalır. Bu necə iqtisadi inkişafdır ki, insanlara verilən maaş, pensiya, sosial ödəmələrin az qala yarısı xaricdən alınan borc və ianələrlə təmin edilir? Üstəlik, xarici borc hər il artır.

Bütün bunların səbəbi məlumdur - iqtisadi tarazlığı təmin etmək üçün yerli resurslar, hərəkətverici iqtisadi dinamika yoxdur. Rusiyadan, İrandan, Avropa xeyriyyə fondlarından pul köçürmələrinə arxayın olaraq büdcəni böyütmək, maaş, pensiya və s. ödənişləri real əsaslar, iqtisadi baza olmadan süni şəkildə artırmaq olduqca risklidir və belə “demokratik iqtisadi islahatların” hansı fəsadlarla sonlanacağını təsəvvür etmək çətin deyil. Yəni, bu ölkənin iqtisdadiyyatı suyun üzərindəki sabun köpüyünə bənzəyir və hər an xarici şoklara məruz qala bilər. Verilən məlumatlara görə, Rusiya iqtisadiyatı, maliyyə sektoru mart ayından başlayaraq çətin və sıxıntılı bir krizisə daxil olub. Mütəxəssislər bunun Ermənistana da mənfi təsirlərinin özünü çox gözlətməyəcəyini proqnozlaşdırırlar.



### “REAL” sədrinə zəruri xatırlatma

Reallıqda Azərbaycan iqtisadiyyatı ilə Ermənistan iqtisadiyyatı bir-birindən müqayisəyəgəlməz dərəcədə əks qütblərdə dayanır. Bu məqamda Cənubi Qafqaz iqtisadiyyatının 62 faizinə sahib olan, 57 milyard dolar valyuta rezervi olan Azərbaycanın inkişafının birbaşa yerli resurslar üzərində inkişaf etdiyini də xatırlatmaq yerinə düşər. Azərbaycanda ÜDM 2022-ci ildə 133,8 milyard manat və yaxud 78,8 milyard dollar təşkil edib ki, bu da Ermənistan və Gürcüstanla müqayisədə müvafiq olaraq 3 və 2,8 dəfə çoxdur. Azərbaycan məhz yeni qlobal çağırışlarla səsləşən ardıcıl islahatlar sayəsində iqtisadi müstəqilliyini tam təmin etmiş ölkədir. Ermənistandan fərqli olaraq respublikamız heç bir güc mərkəzindən, beynəlxalq maliyyə qurumundan, donor təşkilatlarından asılı deyil. İqtisadi potensialını artıran Azərbaycan ölkə hüdudlarından kənarda da fəal investisiya siyasəti həyata keçirir. Güclü iqtisadi potensial, həmçinin respublikamızın siyasi müstəqilliyini şərtləndirir. Azərbaycan milli maraqlara xidmət edən siyasət həyata keçirir.

Azərbaycan bu bölgədə bütün maliyyə öhdəliklərini yalnız öz iqtisadi mənbələri hesabına formalaşdırır. Məsələn, respublikamızın 33,4 milyard manat, yaxud 19,8 milyard dolar həcmində olan dövlət büdcəsinin cəmi il ərzində 1 milyard manatını xarici kreditlər təşkil edir. Bu isə ümumi maliyyə xərclərinin 3 faizi deməkdir. Azərbaycanın xarici borcu isə 6,7 milyard dollardır. Yəni, dövlət büdcəsinin həcmi borcdan 3,2 dəfə çoxdur.

Azərbaycan və Ermənistan iqtisadiyyatları arasındakı kəskin fərq hər iki ölkənin milli statistika komitələrinin təqdim etdiyi rəqəmlərdən də aydın şəkildə görünür.

- Milli valyutaların məzənnəsi: 1 AZN = 229 dram.

### Rəqəmlərdə ifadə olunan kəskin fərqlər

- Minimum əməkhaqqı: Azərbaycanda 345 manat, Ermənistanda 68 min dram və ya 296 AZN.
- Orta aylıq pensiya: Azərbaycanda 456 manat, Ermənistanda 36 min dram və ya 229 AZN.
- Minimum pensiya: Azərbaycanda 280 manat, Ermənistanda 20 min dram və ya 87 AZN.
- Adambaşına düşən ÜDM: Azərbaycanda 13 min 292,2 manat, Ermənistanda 2,3 milyon dram və ya 8 min 062 AZN.
- Adambaşına düşən büdcə xərcləri: Azərbaycanda 3345 manat, Ermənistanda 663 min dram və yaxud 2688 manat.
- Adambaşına düşən xarici borc: Azərbaycanda 1115 manat, Ermənistanda 1 milyon 482 min dram və ya 5146 manat.

***Mübariz ABDULLAYEV***

# Maarifləndirmə işləri aparılsa da...

## Kiberdələduzların qurbanına çevrilənlərin sayı kifayət qədərdir

*Nicat Dilqəmli*

Müasir texnologiyanın sürətlə inkişaf etməsi, bir çox sahələrin, demək olar ki, tamamilə elektronlaşması - avtomatlaşdırılması informasiya texnologiyalarının (İT) etibarlı mühafizəsinin təşkilini ön plana çıxarır. Buna səbəb isə elektron sistemlərə qarşı hücumların sayının kəskin artmasıdır. Ölkəmizdə də son illər müxtəlif dövlət qurumlarına qarşı kiberhücumların həyata keçirilməsi geniş vüsət alıb. Təkcə bu il dövlət qurumlarına qarşı hazırlanmış 314 kiberhücumun qarşısı alınıb. Bu barədə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən bildiriblər. Xüsusi Rabitə və İnformasiya Təhlükəsiziliyi Dövlət Xidməti tərəfindən 1-ci rüb ərzində qeydə alınmış və dövlət qurumlarından daxil olmuş məlumatlar əsasında kiberhücumların analizi ilə 314 kiberhücum indikatoru (IOC) müəyyən edilmiş və bloklanmamasın dövlət qurumlarına qarşı hazırlanmış xüsusi hədəflənmiş APT kiberhücumların qarşısı alınıb. Bu kibertəhdidlərin 139-u daxili araşdırma, 175-i isə dövlət qurumları tərəfindən daxil olmuş insidentlərin araşdırılması əsasında müəyyən olunmuşdur.

Qeyd edilən faktlar İKT sahəsində yeniliklərin tətbiqini qaçılmaz edir. Bu istiqamətdə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanması, təhlükəsizlik sistemlərin təkmilləşdirilməsi kimi bir çox məqamlar nəzərə alınmaqla, istər ölkə daxilindən, istərsə də xaricdən həyata keçirilən hücumların sayını əhəmiyyətli dərəcədə azaltmaq mümkündür. Ölkədə getdikcə artan kibertəhlükəsizlik çağırışlarına cavab olaraq, “PAŞA Holding” Şirkətlər Qrupunun dəstəyi



ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi İsrailin texnologiya üzrə ən nüfuzlu ali təhsil müəssisəsi - “Technion” İnstitutu ilə birgə Azərbaycan Kibertəhlükəsizlik Mərkəzini təsis edib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaydığı məlumatda bildirilir ki, ölkənin kibertəhlükəsizlik imkanlarını gücləndirmək məqsədilə yaradılan mərkəz bu sahədə yüksək ixtisaslı mütəxəssis və təlimçilərin yetişdirilməsində əsas mərkəz rolunu oynayacaq.

**1000-dən çox şəxs 3 ildə...**

Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində 3 il ərzində 1000-dən çox şəxsə təlim verilməsi nəzərdə tutulub. Eyni zamanda, mərkəzdə 15 təlimçinin yetişdirilməsi sayəsində gələcəkdə ölkəmizdə kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanması geniş vüsət alacaq. Kibertəhlükəsizlik sahəsində regionda lider ölkələrdən hesab edilən İsrailin peşəkar müəllim heyəti Azərbaycana gələrək təlim iştirakçılarını ən son kibertəhlükəsizlik təhdidlərini, tendensiyaları və ən yaxşı təcrübələri əhatə edən bilik və bacarıqlarla təmin edəcəklər. Mərkəzdə ən müasir texnologiya və avadanlıqlarla təchiz olunmuş sinif , təlim , simulyasiya otaqları və laboratoriyalar yaradılıb. Tələbələr həmin laboratoriyalarda tədqiqat apara, müxtəlif kibertəhlükəsizlik məhsulları yarada biləcəklər.

**Dərslər artıq başlayıb**

Qeyd edək ki, Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində dərslərə artıq start verilib. 2000 nəfərin müraciət etdiyi seçimlərdə imtahan və müsahibə mərhələlərindən uğurla keçən 60 nəfər dərslərə cəlb olunub. Tədris müddətində ixtisaslaşmış kadr hazırlığı, məlumatlandırma təlimləri, yüksək vəzifəli kibertəhlükəsizlik mütəxəssislərinin ixtisas artırması üzrə təlimlər, kibertəhlükəsizlik məhsullarının araşdırılması və məhsul hazırlığı olmaqla 4 istiqamətdə təlimlər keçiriləcək. “Technion” İnstitutunun təlim proqramına əsasən keçiriləcək təlimlərdə nəzəri və praktiki biliklər öyrədiləcək. Hər təlim periodu üçün 60 nəfər mütəxəssisin hazırlanması nəzərdə tutulur. Təlimlərdə 3 növ mütəxəssisin hazırlanması planlaşdırılır: “Red Team” (hücum), “Blue Team” (müdafiə), “SOC Team” (analitika). Hər birində 20 nəfər olmaqla 3 növ ixtisasda hücum, müdafiə və analitiklərdən ibarət komandalar tədris müddətində simulyasiyalarda iştirak edərək bacarıqlarını inkişaf etdirəcəklər. Təlimi uğurla bitirənlərə “Technion” İnstitutunun rəsmi sertifikatı təqdim olunacaq.

Həyata keçirilən tədbirlər Azərbaycanın informasiya və kommunikasiya texnologiyaları sahəsində qazandığı uğurları bir daha nümayiş etdirir, yaxın gələcəkdə bu sahədə daha böyük nailiyyətlərin əldə olunacağından xəbər verir. Lakin unutmaq olmaz ki, bu məsələdə vətəndaşların özləri də hər zaman ayıq-sayıq olmalı və maksimum ehtiyatlı davranmalıdırlar. Statistika göstərir ki, hər nə qədər bu sahədə maarifləndirmə işləri aparılsa da, hələ də kiberdələduzların qurbanına çevrilənlərin sayı kifayət qədərdir.

Mütəxəssislər qeyd edirlər ki, sadə təhlükəsizlik qaydalarına riayət etməklə bu cür təhlükələrdən qorunmaq mümkündür.

Bu qaydaları bir daha xatırladırıq:

Tanış olmayan, şübhəli görünən hansısa keçidlərə daxil olmayın;

Şəxsi məlumatlarınızı üçüncü tərəfə heç bir halda ötürməyin;

Qurğularınızda naməlum mənbələrdən olan tətbiqlər üçün soruşulan icazələrə diqqət edin.

İT mütəxəssislərinin fikrincə, qeyd edilən məqamlara diqqət yetirməklə baş verə biləcək xoşagəlməz halların qarşısını almaq olar. Lakin hər bir halda mütəxəssislərə müraciət etməkdə fayda var.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# Ermənilərə “material” ötürən İran...

## Azərbaycanın hərbi “sirləri”ni öyrənmək o qədər də asan deyil...

İran növbəti dəfə regionda sülhün, əməkdaşlığın və təhlükəsizliyin bərpa olunmasının əleyhinə mövqe tutduğunu ortaya qoyub. Belə ki, İran medialarından biri yenə də absurd və təxribat xarakterli paylaşımı ilə diqqət çəkib. Teleqram kanallarının məlumatına görə, İran saytı Yevlaxda hərbi bazanın peyk görüntüsünü paylaşıb, koordinatlarını qeyd edib. Yazıblar ki, Muğandan 200 km məsafəsi var.

Bu isə rəsmi Tehranın regionda distabillik arzusundan əl çəkmədiyini göstərir. Azərbaycanın yürütdüyü çoxvektorlu, dostluğa və əməkdaşlığa, qarşılıqlı milli maraqlara əsaslanan xarici siyasət kursu molla rejimini narahat etməyə bilməz. Azərbaycanın regional əməkdaşlıqların sərhədlərini daha da genişləndirmək uğrunda səylərinin öz bəhrəsini verməsi - artıq Cənubi Qafqaz ilə yanaşı əməkdaşlığın hüdudları Aralıq dənizi hövzəsi, Yaxın Orta Şərq regionu, Mərkəzi Asiya ilə assosiasiya olunur. Azərbaycan böyük bir coğrafiyada yeni iqtisadi reallıqlar yaratmaqla yanaşı, siyasi mənzərəyə də mühüm çalarlar əlavə edir. İmzalanan strateji müttəfiqlik bəyannamələri, dünyanın aparıcı dövlətləri ilə münasibətlərin inkişafı bölgənin təhlükəsizliyi və inkişafı ilə bağlı yeni mərhələ formalaşdırır. Başqa sözlə, bu əlaqələr regionda yeni siyasi-iqtisadi konfiqurasiya formalaşdırır ki, bunun da təməli Azərbaycan tərəfindən atılır. İran dərk edir ki, müasir çağırışlar regional əməkdaşlıqların inkişafını vacib şərt olaraq müəyyənləşdirməkdədir və Azərbaycan da yeni çağırışlar əsasında bu əməkdaşlıqları formalaşdırır. Bu səbəbdən də, rəsmi Tehran regionda sülhün və təhlükəsizliyin yaranmasına var gücü ilə mane olmağa çalışır. Qeyd edilən təxribat isə bunun bariz sübutudur.

### Təyyarə təxribatı kəşfiyyat toplamaq məqsədi daşıyırdı...

İranın Azərbaycanla bağlı kəşfiyyat materiallarını Ermənistana ötürmək istəyi və arzusu hər zaman ortada olub - hətta dəfələrlə faktlarla sübut edilib. Təsadüfi deyil ki, bir ay öncə, martın 11-də İrana məxsus hərbi təyyarə təxminən bir saat müddətində fasiləsiz olaraq Azərbaycan-İran dövlət sərhədi boyunca, Zəngilan rayonu istiqamətindən Biləsuvar rayonu istiqamətinə və geriyə doğru uçuş həyata keçirmişdi. Təyyarə iki ölkə arasında dövlət sərhədindən 3-5 km məsafədə, bəzi hallarda isə dövlət sərhədinin tam üstü ilə uçmuşdu. İranın bu davranışı isə hərbi təyyarələrin dövlət sərhədinə yaxınlaşması ilə bağlı qonşu dövləti əvvəlcədən xəbərdarlıq etməyə dair beynəlxalq aləmdə qəbul olunmuş təcrübəyə ziddir - İran hərbi təyyarəsinin iki ölkə arasında dövlət sərhədinə bu qədər yaxınlaşması və sərhəd xətti üzərindən uçması mülki aviasiyanın təhlükəsizliyinə təhdid törədir və iki ölkə arasında münasibətləri daha da gərginləşdirməyə xidmət edir. Həmin dövrdə rəsmi strukturların yaydığı bəyanatda da bildirilirdi ki, işğaldan azad edilmiş Azərbaycan ərazilərinin yaxınlığında yarım saatdan çox müddət ərzində hərbi təyyarənin uçuşu Azərbaycana qarşı təxribat və qeyri-dost davranışıdır.

**Ölkəmiz beynəlxalq kosmik aləmin mühüm bir parçasıdır**

Təbii ki, bu uçuşun da əsas məqsədi mühüm strateji mövqelərimizin Ermənistana xəbər verilməsi idi. Amma İran bununla heç nə qazana bilmədi - tam əksinə, qonşu dövlət olaraq öz nüfuzuna böyük zərbə vurdu.

**Bizə qarşı yönələn hər hansı bir təhlükə və təhdidi əvvəlcədən müəyyənləşdirərək zərərsizləşdirmək iqtidarındayıq**

### Casus şəbəkəsinin hədəfi də hərbi hissələr idi...

İranın Azərbaycanın hərbi hissələri ilə bağlı kəşfiyyat materialları toplaması ifşa edilən casus şəbəkələrinin də əsas tapşırıqlarından sayılıb. Məsələn, ötən ilin noyabrında DTX tərəfindən keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində müəyyən edilib ki, Xəzər Dəniz Neft Donanmasında gəmi kapitanı vəzifəsində işləyən Əsgərov Zahir Fəxrəddin oğlu İranın Qum şəhərində dini təhsil aldığı müddətdə maddi maraq müqabilində adıçəkilən ölkənin xüsusi xidmət orqanı nümayəndələri tərəfindən məxfi əməkdaşlığa cəlb edilib. O, ötən dövr ərzində onların tapşırığı ilə Azərbaycan Respublikasının suverenliyi və müdafiə qabiliyyətinin zərərinə istifadə etmək üçün xarici dövlətlərin ölkəmizdə fəaliyyət göstərən şirkət və nümayəndəlikləri, Xəzər dənizində Hərbi Dəniz Qüvvələrinin keçirdiyi təlimlərin yeri və vaxtı, neft platformalarına daşınan yüklər barədə məlumatlar toplayıb.

Başqa bir araşdırma ilə müəyyən edilib ki, Rəsulov Elnur Akif oğlu 2018-ci ildə müalicə məqsədilə İranda olarkən orada özünü “Meyse” və “Doktor” adları altında təqdim edən bu ölkənin xüsusi xidmət orqanı nümayəndələri ilə məxfi əməkdaşlıq barədə sövdələşib. Elnur Rəsulov əvvəlcə bilavasitə, daha sonra məxfi əməkdaşlığa cəlb etdiyi qohumu Rəsulov Arif Əmrah oğlu ilə birlikdə müxtəlif məbləğlərdə ödəniş qarşılığında verilən tapşırıqları icra edərək Bakı şəhəri Qaradağ rayonunda neft və qaz boru kəmərlərinin keçdiyi ərazilərin, hava limanlarında saxlanılan Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidmətinə aid pilotsuz uçuş aparatlarının, tankların və müxtəlif hərbi avadanlıqların olduğu ərazinin, Bakı şəhərində “Teknofest” Aviasiya, Kosmik və Texnologiya festivalında nümayiş etdirilmiş texnikaların, Bakıda, həmçinin Salyan və Füzuli rayonlarında yerləşən strateji və hərbi obyektlərin, zenit-raket komplekslərinin, eləcə də digər radar-nəzarət qurğularının fotoşəkillərini və videoçəkilişlərini “WhatsApp” ani mesajlaşma sistemi vasitəsilə xüsusi xidmət orqanının nümayəndəsinə göndərib.

Bu kimi faktlar İranın Azərbaycana münasibətdə tutduğu düşmən mövqeyini bir daha sübut edir. Əldə etməyə çalışdığı məlumatları Ermənistanla “bölüşən” İran beləliklə öz maraqlarına nail olmağa çalışır. Bu maraqlar isə regionda sabitliyə qarşı yönəlib. Amma İran və onun əlaltıları, müttəfiqi Ermənistan da unutmamalıdır ki, Azərbaycanın əldə etdiyi inkişaf bütün sahələrdə təhlükəsizliyimizin təmin olunmasına şərait yaradıb. Azərbaycana qarşı olan qüvvələr unutmamalıdırlar ki, ölkəmiz beynəlxalq kosmik aləmin mühüm bir parçasıdır - ona qarşı yönələn hər hansı bir təhlükə və təhdidi əvvəlcədən müəyyənləşdirərək zərərsizləşdirmək iqtidarındadır...

***MƏNSUR***

# Tehranın "U" dönüşü...

## Müsəlman ölkələrinə qarşı aqressiv davranışlara son qoyulur?

**İran çıxılmaz vəziyyətdədir - beynəlxalq aləmdə tək qalıb**

İranın son illərdə müsəlman ölkələrinə qarşı apardığı qeyri-adekvat siyasətin fiaskoya uğradığı göz önündədir. Bəzi müsəlman ölkələrinə qarşı haqsız aqressiv münasibət rəsmi Tehranı İslam dünyasından təcrid halına gətirib. Belə demək mümkündürsə, özünü sivil bir dövlət, beynəlxalq hüququ dəstəkləyən subyekt kimi aparmayan İran daha çox təxribatçı addımları, terrora çağırışları



ilə seçilirdi. Bu isə, yolverilməz olduğu qədər təhlükəlidir. Məsələn, artıq uzun müddətdir ki, Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdən rəsmi Tehranın işğalçı, islam dəyərlərini təhqir etmiş Ermənistanı dəstəkləməsi məntiqsizdir. Bu addımı "maraqlar" müstəvisində izah etmək belə mümkün deyil - çünki İran regionun lider dövləti, qalib və eyni dinə məxsus olduğu Azərbaycanla əməkdaşlıq etməkdənsə, Ermənistanı seçir. Demək ki, burada dövlət marağı və ya başqa mühüm bir amil yer ala bilməz...

Bu kimi münasibət isə tək Azərbaycana qarşı deyil - rəsmi Tehran digər müsəlman ölkələrinə qarşı da eyni aqressiya ilə çıxış edir. Məsələn, ötən ilin sonunda İranın Səudiyyə Ərəbistanına hücum edəcəyi ilə bağlı məlumatlar yayılmışdı. "The Wall Street Journal" İranın Səudiyyə Ərəbistanına mümkün hücumu barədə xəbər dərc etmişdi. Qəzet hədəfin Səudiyyə ilə yanaşı digər, müsəlman dövlətləri olduğunu da bildirmişdi. Bu ehtimalı Səudiyyə Ərəbistanı kəşfiyyatı da təsdiqləmişdi.

**Səudiyyəlilərə qarşı qadağa aradan qaldırılır...**

Amma, deyəsən, rəsmi Tehran artıq reallıqları dərk etməyə başlayıb. Özünü beynəlxalq aləmdən təcrid etmiş, haqlı iqtisadi sanksiyalara məruz qalmış, beynəlxalq təhlükəsizliyə təhdid yaradan addımlar atmış İran artıq bəzi hərəkətlərini tənzimləmək istəyir. Məsələn, müsəlman dnyasının aparıcı dövlətlərinə qarşı tətbiq etdiyi qadağalar aradan qaldırılır. ISNA-nın yaydığı məlumata görə Səudiyyə Ərəbistanı vətəndaşlarının 7 illik qadağadan sonra İrana qayıtması və iki ölkənin səfirliklərinin yenidən açılması müəyyənləşib. İranın Hava Səyahətləri və Turizm İdarəsinin Həmkarlar İttifaqının rəhbəri Səudiyyə Ərəbistanının İrana birbaşa uçuşlar yaratmaq və tezliklə səfərləri bərpa etmək və asanlaşdırmaq niyyətində olduğunu açıqlayıb. Bundan əlavə, Səudiyyə Ərəbistanının texniki nümayəndə heyəti İranda Baş Konsulluğun açılması üçün Məşhədə səfər edib.

Əslində bu addım İranın öz xoşu ilə atılmır - İran hazırda "dəstək" axtarışındadır. Terrora himayədarlığı, münasibətlərdə qeyri-sağlam davranışları İranı regionda tək qoyub - rəsmi Tehran anlayır ki, baş verə biləcək hər hansı bir mümkün insident bütövlükdə beynəlxalq aləmi ona qarşı qoyacaq. Bundan qaçmaq üçün isə...

**İran qaz böhranının bir addımlığındadır**

İran həm də iqtisadi böhranın bir addımlığındadır. Ötən ilin sonunda iqtisadi ekspertlərin səsləndirdikləri statistik rəqəmlər də bunu təsdiqləyir. Belə ki, İranın hazırda qaz sektorunun 70 milyard dollara yaxın sərmayə yatırımına ehtiyacı olsa da, hökumətdə bu qədər pul yoxdur. 2021-ci ildə, eləcə də, ondan öncəki 4 ildə hər il neft və qaz yataqlarına yalnız 3 milyard dollar sərmayə yatırılıb. Bu isə böyük geriləmələrə səbəb olub - İranın 70 faiz qazını təmin edən "Cənubi Pars" qaz yatağı 2022-ci ildən kəskin təzyiq azalması ilə üzləşib. Qarşıdakı dövr üçün isə istehsalın hər ilə 10 milyard kubmetr azalacağı proqnozlaşdırılır. Ölkədə qaz böhranı həll olunmasa, İran qaz idxalatçısı olacaq. Başqa çarəsi yoxdur. Bu isə ildə milyardlarla dollar vəsaitin qaz idxalına getməsi deməkdir.

Xarici bazarlarla bağlı vəziyyət də ürəkaçan deyil. Avropa bazarından çıxarılmış Rusiya hazırda İranın "Şərq bazarları"nda ən böyük rəqibinə çevrilib. Yalnız neft deyil, son aylarda İranın polad və dəmir ixracatı da kəskin azalıb və Rusiya Şərq bazarlarını İranın əlindən alıb.

**Yeni alternativlər meydana çıxır - Rza Pəhləvi faktoru aktuallaşır...**

İranın "yumşalmasının" bir mühüm səbəbi isə siyasi və hərbi proseslərlə bağlıdır. Daxili auditoriyada hakimiyyətin nüfuzunun güclü olmaması, etirazların kütləvi hal alması, hakimiyyətdaxili çəkişmələrin yaşanması İranı rejimini düşüncəyə qərq edib - təbii ki, prosesin sonunun hakimiyyət dəyişikliyi ilə müşayiət olunması proqnozlaşdırılır. Belə olan halda, İran hakimiyyəti üçün ən təhlükəli hal daxili etirazların güclənməsidir. Bu isə qarşısıalınmaz bir prosesə çevrilib. İnsan hüquq və azadlıqları kontekstində heç bir güzəştə getməyə hakimiyyətin etirazçılarla sərt davranışı beynəlxalq aləmin, ən əsası isə Qərbin diqqətindən yayınmır. Qərb dünyası İranın bu davranışları qarşısında susqun dayana bilməz. Hətta daxili auditoriya üçün yeni alternativlər belə ortaya çıxır. Məsələn, son dövrlərdə ABŞ-da yaşayan İran vəliəhdi Şahzadə Rza Pəhləvinin fəallaşması gözdən yayınmır - yenidən İranla bağlı fikirlər səsləndirən Rza Pəhləvi bu dəfə hətta fərqli qiyafədə - demokrat bir "lider" kimi İran siyasətinə dönüş etməyə niyyətli olduğunu açıq şəkildə bildirir. Yeri gəlmişkən, İsrailin kəşfiyyat və atom enerjisi naziri Gila Qamliel hazırda ABŞ-da yaşayan İran vəliəhdi Şahzadə Rza Pəhləvi ilə görüşəcək. Bu barədə İsrail hökuməti məlumat yayıb. "İsrailin kəşfiyyat naziri Gila Qamliel İranın vəliəhdi, şahın oğlu və indiyə qədər İsrailə açıq səfər edəcək İranın ən yüksək rütbəli şəxsi Rza Pəhləvini qəbul edəcək", - məlumatda bildirilir. Qeyd olunur ki, görüşün məqsədi İsrail və İran xalqı arasında körpü yaratmaqdır:

"Görüş zamanı İranda insan haqları ilə bağlı vəziyyəti müzakirə etmək planlaşdırılır. Səfər çərçivəsində Rza Pəhləvi Holokost qurbanlarının Beynəlxalq Anım Günü şərəfinə keçiriləcək rəsmi açılış mərasimində iştirak edəcək, eyni zamanda, bəhai dini icmasının üzvləri və yəhudi-iran icması ilə görüşəcək".

*S.İSMAYILZADƏ*

# Etirazlar yenidən alovlanır...

## İran hakimiyyəti sözündən döndü

**Molla rejimi geyim azadlığı ilə bağlı vədinə "xilaf" çıxır**



İranda ötən ilin sentyabrında 22 yaşlı Məhsa Əmininin əxlaq polisi tərəfindən zorakılığa məruz qalması və bir neçə saatdan sonra xəstəxanada vəfat etməsi ilə başlanan etirazlar artan-azalan templə artıq 8 aydır ki, davam edir. SEPAH dəstələrinin özbaşınalığına etirazdan qaynaqlanan aksiyalara vəhşicəsinə müdaxilələr edildi - hətta etirazçılar həbs olundu və edam edildilər. Qeyd edək ki, artıq lokal çəçivədən kütləvi hala çevrilmiş aksiyaların tələbləri sırasında mühüm məsələlərə rast gəlinir:

- İnsan hüquq və azadlıqlarının təmini;
- Vətəndaşların sosial tələblərinin nəzərə alınması;
- Əxlaq polisinin ləğvi;
- İnternetdən azad istifadə;
- Məcburi hicab qadağasının aradan qaldırılması kimi bir sıra tələblər etirazçılar üçün mühüm əhəmiyyətə malik idi.

Amma bu tələblər sırasından yalnız əxlaq polisinin ləğv olunması, digər mühüm problemlərin həlli istiqamətində hər hası addımın atılmaması etirazların yeni mərhələsini şərtləndirə bilər. Bu səbəbdəndir ki, İran rejimi özü üçün "arqument" axtarışına çıxıb...

## "Çöldə düşmən axtarışı" metodu işə düşdü...

Belə ki, etirazçıların tələblərini yerinə yetirmək istəməyən İran hakimiyyəti fərqli yollarla öz fikirlərini "əsaslandırmağa" çalışır. Məsələn, İran prezidenti İbrahim Rəisi Tehranda ölkə üzrə tələbə birliklərinin nümayəndələri ilə görüşdə hicab və internet istifadəsi kimi problemlərə toxunub. Rəisi ölkədə Məhsa Əmininin ölümündən sonra başlayan etirazlar və məcburi hicab tətbiqində yaşanan problemlərlə bağlı fikirlərini səsləndirib. O bildirib ki, hakimiyyət hicab problemini mədəni yanaşma ilə həll etməyə çalışır. Rəisi İranda hicabın "təhlükəsizlik" məsələsinə çevrilməsinə icazə verməyəcəklərini ifadə edib: "Düşmən hicabın İranda təhlükəsizlik məsələsi olmasını istəyir. Hökumət olaraq lazım olan proqramları həyata keçirərək buna icazə verməyəcəyik".

İranda sosial şəbəkələrin qadağan edilməsinə münasibət bildirən Rəisi beynəlxalq sosial media platformalarının İranda nümayəndəliyinin olması lazım olduğunu, əks halda onların fəaliyyətinə icazə verilməyəcəyini qeyd edib:

"Biz ölkəmizdə nümayəndəlik açmağı qəbul edən heç bir platformaya qadağa qoymamışıq. Hökumət olaraq məqsədimiz ölkədə internetdən istifadəni təhlükəsiz etməkdir. Bu səbəbdən bu platformaların İranda nümayəndəlikləri olmalıdır".



Göründüyü kimi, İran hakimiyyəti etirazların səngiməsindən istifadə edərək yenidən özünün diktator üzünü göstərməyə başlayıb. Etirazların sərt dövründə islahatlara gediləcəyi, qadağaların aradan götürüləcəyi ilə bağlı vədlər verən hakimiyyət bu dəfə də xalqı aldatmağa çalışır. Qeyd edək ki, ötən ilin sonunda əxlaq polisini ləğv edən İran hakimiyyəti bunu "islahatların başlanğıcı" kimi qələmə vermişdi. Ardından isə ölkə Konstitusiyasına dəyişikliklərin mümkünlüyü ilə bağlı fikirlər irəli sürülürdü - hətta konstitusiyasının bəzi maddələrinin dəyişdirilməsinin mümkünlüyü bildirilirdi. Bununla bağlı prezident Rəisi bildirmişdi ki, Konstitusiyada heç bir çıxılmaz vəziyyət yoxdur: "Onun təşkili, hazırlanması və yekunlaşdırılması Konstitusiyanın həyata keçirilməsində, ölkənin işlərinin idarə olunmasında istənilən çıxılmaz vəziyyətlə üzləşəcək şəkildə həyata keçirilib. Zərurət yarandıqda Konstitusiyanın tətbiqi, üsul və mexanizmləri mütləq dəyişdirilə və təkmilləşdirilə bilər".

## Hakimiyyət "islahatlar" vədini unudub...

Amma zaman keçdikcə, küçə etirazları səngidikcə hakimiyyət verdiyi sözdən qaçmağa niyyətlənib. Təbii ki, baş verə biləcək hallar və qarşıdakı mərhələnin çətinliyi də bəllidir - İran hakimiyyəti artıq uzun illərdir ki, davam etdiriyi sərt qadağaları aradan qaldırması vətəndaş qarşıdurması qaçılmaz ola bilər.

## Geyim qadağası hər zaman aktualdır

Qeyd edək ki, ötən ilin yayında da analoji hal baş vermişdi - İranda bir çox qadın geyim qanunlarının sərtləşdirilməsinə cavab olaraq həm qapalı, həm də ictimai yerlərdə hicablarını çıxarmış, foto və videolarını sosial şəbəkələrdə paylaşmışdı. Sosial şəbəkədə özünün çəkdiyi videoda etiraz etməsinin səbəbini açıqlayan bir qadın "Məcburi hicaba yox! Qaydalara yox demək üçün bu gün başımı örtmədən işə getdim. Ürəyimizin istədiyini etməli, sərbəst geyməliyik", demişdi.

Ümumiyyətlə, İranda son illərdə oxşar kampaniyalar keçirilib, qadınların hicab tələbinə etirazı #MySecretFreedom və #WhiteWednesday kimi həştəqlərlə müşayiət olunub. Hətta qadınların çəkdikləri videolara ölkədə bir çox kişi də dəstək verib. Tehranda məscidin divarına yazılan "Çörək, iş, azadlıq və istəyə bağlı qapanma" mesajı sosial mediada çoxları tərəfindən paylaşılıb. Həmin dövrdə də hakimiyyət



qadınların azadlıq tələbini xarici faktorlarla əlaqələndirməyə çalışmışdı - İranın Ədliyyə Sisteminin rəhbəri Qulamhüseyn Mohseni Ajeei qadınların nümayişinin arxasında xarici qüvvələrin olduğunu demişdi.

*SADİQ*

# İnsan amilini heçə sayan...

## Fransada etiraz aksiyaları yenidən güclənib

*N.BAYRAMLI*

Fransa prezidenti Emmanuel Makron pensiya islahatı haqqında qalmaqallı qanun layihəsini təsdiqləyib. Sənəd ötən şənbə günü Fransa Respublikasının rəsmi qəzetində dərc olunub. Bu, cümə günü Fransanın Konstitusiya Məhkəməsinin pensiya islahatını qismən qanuni qərar verməsindən və minimum pensiya yaşını 62-dən 64-ə qaldırmaq üçün əsas maddəni təsdiqləməsindən sonra baş verib.

Xatırladaq ki, Fransada yanvarın sonundan pensiya islahatlarına qarşı kütləvi küçə etirazları keçirilir. Emmanuel Makronun pensiya islahatları barədə qanunu imzalamasına baxmayaraq, əhalinin əksəriyyəti etiraz aksiyalarının davam etdirilməsinin tərəfdarıdır. Bu ölkədə "Elabe" sosiologiya xidmətinin keçirdiyi rəy sorğusunun nəticələrinə əsasən, fransalıların 64 faizi pensiya islahatlarına qarşı etirazların davam etdirilməsini, 45 faizi isə aksiyaların daha da aktivləşməsini istəyir. Eyni zamanda, rəyi soruşulanların 69 faizi pensiya islahatlarının əleyhinə olduqlarını bildirib. Respondentlərin yalnız 35 faizi nümayişlər və tətillərə son qoyulmaq vaxtının çatdığını deyib. Bu fikri ötən ilin aprelində keçirilən prezident seçkilərində Emmanuel Makrona səs verənlərin 77 faizi dəstəkləyib. Fransalıların 61 faizi isə pensiya islahatları ilə bağlı fikir ayrılığı fonunda ölkədə yaranan sosial böhrana görə prezidenti və hökuməti günahlandırır.

Ümumiyyətlə, özünü demokratiyanın "beşiyi" hesab edən Fransada hüquq-mühafizə orqanları etiraz aksiyası-



nın iştirakçılarına görünməmiş dərəcədə zorakılıq törədiblər. Aksiyalar ölkənin bir çox böyük şəhərlərini əhatə edir. Pensiya islahatlarının əsas müddəalarını təsdiq edilməsindən sonra da bir sıra şəhərlərdə etirazçılarla polislər arasında toqquşmalar baş verib. Belə ki, Parisdə etirazçıların bəziləri meriya binasının qarşısına toplaşıb, yanğınlar törədiblər. Polis gözyaşardıcı qazdan istifadə edib. Renn şəhərində nümayişçilər polis məntəqəsinə hücum edərək, giriş qapısını yandırıblar. Nantın mərkəzində isə tramvay relslərində də yanğın törədilib, prefektura binası yaxınlığında etirazçılar polislə toqquşub. Tuluza, Dijon, Strasburq, Marsel və Lion şəhərlərində də nümayişlər keçirilir. Polis bu şəhərlərdə də gözyaşardıcı qazdan istifadə edir.

Qeyd edək ki, bir müddət öncə beynəlxalq təşkilatlar da bütün bunlara görə rəsmi Fransaya etiraz etmişdilər. Belə ki, Avropa Şurasının İnsan hüquqları üzrə komissarı Dunya Miyatoviçin bəyanatında bildirilirdi ki, Fransada ifadə və sərbəst toplaşma azadlıqlarının həyata keçirildiyi şərait narahatlıq doğurur. Onun sözlərinə görə, hakimiyyət ifadə və sərbəst toplaşma azadlığının həyata keçirilməsini, dinc nümayişçilərin və jurnalistlərin polis zorakılığından və zorakı fərdlərdən qorunmasını təmin etməlidir. Nümayişçilərə qarşı törədilmiş zorakılıq aktlarını diqqətə çatdıran komissar qeyd edib ki, hüquq-mühafizə orqanlarının hər hansı bəhanə ilə güc tətbiq etməsinə haqq qazandırıla bilməz. Bəzi bəhanələrlə dinc nümayişçiləri sərbəst toplaşmaq hüququndan məhrum etməl olmaz. Komissar, həmçinin bəzi nümayişçilərin və nümayişlərin yaxınlığında olan insanların polis tərəfindən müvəqqəti saxlanılması və dindirilməsi kimi azadlıq və təhlükəsizlik hüququna xələl gətirən tədbirlərə əl atmasından narahatlığını qeyd edib.

Bir müddət öncə Azərbaycanın Xarici İşlər Nazirliyi də Fransada baş verən hadisələrə münasibət bildirmişdi. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə yerli mətbuatın sualına cavabında qeyd etmişdi ki, Fransada prezident Makronun qərarı ilə əlaqədar əhalinin etirazlarına qarşı hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən həddindən artıq və qeyri-proporsional güc tətbiqini, bəzi hallarda etirazçılara qarşı qeyri-insani davranışları pisləyirik: "Fransa hökumətini ölkədə fikir və sərbəst toplaşma azadlığı, dinc etiraz hüququ kimi konstitusion hüquqlara hörmət etməyə çağırırıq. Hesab edirik ki, Avropa Şurası və beynəlxalq insan hüquqları təşkilatları Fransada aşırı zorakılıq hallarının araşdırılması və bu ölkənin öhdəlikləri çərçivəsində müvafiq tədbirlərin həyata keçirilməsini tələb etməlidir".

Fransada nümayişçilərə qarşı polis zorakılığı bütün hədləri aşmaqdadır. Bir çox ekspertlər hesab edirlər ki, Avropanın mərkəzində insanlara qarşı bu cür davranış qəbuledilməzdir. Beynəlxalq ictimaiyyət Fransada insan haqlarının pozulmasına reaksiya verməli, öz etiraz səsini ucaltmalıdır. Digər tərəfdən, bu hadisələr fonunda rəsmi Parisin başqa ölkələrə insan haqları dərsi keçməsinə mənəvi haqqı yoxdur. Fransa hakimiyyəti insan hüquq və azadlıqlarını bəhanə edib başqa ölkələrin daxili işlərinə qarışmamalıdır. Bu ölkə ilk növbədə öz daxilində insan haqlarına, demokratik dəyərlərə hörmət etməyi öyrənməlidir.

# Ermənistanın Hindistan "sevgisi"

## Rəsmi İrəvan niyə özünü Rusiya və Qərb tərəfindən tərk edilmiş hiss edir?

*Nardar BAYRAMLI*

Ermənistanın Hindistandakı səfiri Yuri Babaxanyan iki ölkə arasında hərbi-texniki əməkdaşlığın qurulduğunu, bu ölkədən yüz milyonlarla dollar dəyərində silah-sursat, o cümlədən "Pinaka" reaktiv yaylım atəşi sistemlərinin alınmasına dair müqavilələrin imzalandığını bildirib. O deyib ki, yaxın vaxtlarda Ermənistanın Hindistandakı səfirliyinə hərbi attaşe təyin olunacaq. Babaxanyanın sözlərinə görə, Ermənistan özünü Rusiya və Qərb tərəfindən tərk edilmiş hiss edir: "2020-ci ilin payızında 44 günlük müharibə zamanı Tramp dministrasiyasının döyüşləri dayandırmaq cəhdləri yarımçıq və ləng olub. Lakin Co Bayden administrasiyası regiona daha çox diqqət yetirməyə çalışır. Çünki Cənubi Qafqaz Qərbin Çin, Rusiya və İran kimi əsas rəqiblərinin, eləcə də şəxsi maraqlarının arasında kəsişmə nöqtəsinə çevrilib".

**Hindistan Ermənistanı silahlandırır**

Qeyd edək ki, Hindistan Ermənistana təxminən 250 milyon dollar dəyərində silah-sursat göndərəcək. Belə ki, ötən ilin sentyabrında iki ölkənin hökumətləri arasında müvafiq müqavilələr imzalanıb. Sifariş yerli istehsal olan "Pinaka" raket sistemlərinin ilk ixracını əhatə edir. Həmçinin razılaşmanın bir hissəsi olaraq Hindistan Ermənistana tank əleyhinə raketlər və bir sıra digər hərbi sursatlar da verəcək. Bu, Hindistanın Ermənistana ilk silah ixracı deyil. 2020-ci ildə Vətən müharibəsi zamanı erməni mediası yazırdı ki, Hindistan Ermənistana 4 ədəd "Swathi" radarı tədarük edib.

Maraqlıdır ki, Ermənistanın Hindistandakı səfiri silah məsələsinə görə niyə Rusiya və Qərbdən gileylənir və Hindistana üz tutur? Rusiyaya gəlincə, Ermənistan cəmiyyətində hələ 44 günlük müharibə dövründən bu ölkəyə qarşı narazılıq baş qaldırıb. Həmin vaxtlar erməni ekspertlər iddia edirdilər ki, müharibədə Ermənistanın məğlub olması silah sövdələşməsində Rusiyadan üz döndərməsinə əsas səbəb olub. Rusiyadan Ermənistana zamanında böyük həcmlərdə müxtəlif təyinatlı silahlar göndərildiyi hər kəsə bəllidir, özü də əksər hallarda hərbi texnika bu ölkəyə pulsuz, dəyəri ödənilmədən tədarük edilirdi. Lakin ermənilərin fikrincə, Rusiyadan Ermənistana daşınan hərbi texnika döyüşlər zamanı keyfiyyətsiz çıxdı, onlarla hansısa bir uğura imza atmaq müşkülə çevrildi. Açıq-aydın görünürdü ki, köhnəlmiş bu texnika ilə XXI əsrin müharibəsini aparmaq mümkün deyil. Belə qənaət hasil olur ki, məhz bu kimi səbəblərə görə də Ermənistan daha Rusiya silahlarına bel bağlamaq istəmir. Son vaxtlaradək Ermənistanda ABŞ-dan silah almaq ideyaları da müzakirə edilirdi. Ancaq bu da real görünmür. ABŞ Ermənistandan uzaq məsafədə yerləşir. Okeanın o tayından müasir silah tədarükü olduqca baha başa gələr. Bu isə Ermənistanın büdcəsinə uyğun deyil. Öz növbəsində, Qərb ermənilərə pulsuz silah vermək fikrində deyil.



**Azərbaycanın qələbəsi Hindistanı niyə narahat edib?**

Ümumiyyətlə, Vətən müharibəsi təkcə Azərbaycanın qələbəsi ilə yekunlaşmadı. Bu amil həm də regionun mənzərəsini, böyük güclərin Cənubi Qafqaz ölkələri ilə münasibətlərinə, xüsusilə regiondakı güclər balansına ciddi təsir etdi. Müharibədən əvvəl istər regional, istərsə də ondan kənarda yerləşən, lakin regionda maraqları olan güclər birmənalı olaraq Azərbaycanın bütün sahələr üzrə Ermənistandan üstün olduğunu dərk etsələr də, onun belə uğurlu, ildırımsürətli və hərbi cəhətdən mükəmməl taktikalardan yararlanmaqla 44 günə 28 il ərzində qurulan müdafiə potensialını dağıda biləcək qüvvəyə sahib olduğunu proqnozlaşdıra bilməmişdilər. Bu baxımdan, Hindistan da Ermənistanla münasibətləri gücləndirir. Diqqətçəkən faktlardan biri odur ki, 30 illik Ermənistan-Hindistan diplomatik münasibətləri tarixində Hindistanın xarici işlər naziri ilk dəfə məhz Vətən müharibəsindən 11 ay sonra, 2021-ci ilin oktyabrında Ermənistanda olub.

Məsələnin əsl mahiyyətini və kökünü Ermənistandan Hindistana ixrac edilən qiymətli və əlvan metallarda axtarmaq. Belə ki, rəsmi statistikaya görə, məsələn 2020-ci ildə Ermənistan Hindistana 148 milyon dollarlıq məhsul ixrac edib ki, bunun da 147 milyonu tək qızılın payına düşür. Bəs Ermənistan bu qızılı haradan çıxarıb? Əlbəttə ki, işğal etdiyi Azərbaycanın Kəlbəcər rayonundakı Zod yatağından. Statistikaya diqqət yetirdikdə, 1995-ci ildən sonra qızıl və digər qiymətli metalların ixracı hesabına Ermənistan-Hindistan ticarət dövriyyəsinin hər il hiss ediləcək dərəcədə artdığını görə bilirik. Ermənistan təkcə 2019-cu ildə 5.8 ton qızıl hasil edib ki, onun da əsas təyinat nöqtəsi Hindistan, Kanada və İsveçrə olub. Ermənistan işğal olunmuş ərazilərimizdə yerləşən və özündə müxtəlif növ faydalı qazıntıları birləşdirən 163 yataqdan qeyri-qanuni istifadə edib. Qızıl, gümüş, mis, molibden, civə, dəmir, xrom yataqları, eləcə də qum, çınqıl, gil və digər faydalı qazıntı yataqlarında Ermənistan tərəfindən qeyri-qanuni və intensiv şəkildə kəşfiyyat və hasilat işləri aparılıb. Ermənistanın apardığı qeyri-qanuni iqtisadi fəaliyyət 1949-cu ildə qəbul edilmiş "Müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında" Cenevrə Konvensiyasının, "Quru müharibəsinin qanun və adətləri haqqında" IV Haaqa Konvensiyasının tələblərini kobud şəkildə pozub.

**Hindistan silahları Ermənistan ordusunu müasirləşdirməyəcək**

Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi və digər fəaliyyətlərə görə təkcə Ermənistan deyil, həmin ərazilərdən qeyri-qanuni çıxarılan xam materialların və materiallardan hazırlanan məhsulların ixrac edildiyi ölkələr, habelə Hindistan məsuliyyət daşıyır. Vətən müharibəsində Azərbaycanın qələbəsi Hindistan və digər ölkələrin bu qeyri-qanuni fəaliyyətinin qarşısını alıb. Bütün bunlara görə, Hindistan Ermənistanla münasibətləri istiləşdirməyə qərar verib.

Lakin Hindistan dünyanın ərazi və əhali baxımından öndə olan ölkələrindən olsa da, sosial-iqtisadi cəhətdən acınacaqlı səviyyədədir. Bu ölkədə əhalinin böyük hissəsi səfalət içində yaşayır, istehsal etdiyi əksər məhsulların keyfiyyəti isə müasir dünya standartlarına cavab vermir. Belə olan halda, Hindistan istehsalı olan silahlar da Ermənistan ordusunu "müasirləşdirmək" iqtidarında deyil. Bu cür ölkədən silah almaq ilə qürrələnən Ermənistan əslində özünü gülünc vəziyyətə salır.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


## "Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər

Azərpoçt Poçtdaşıma Mərkəzi - 0125984955, 0552004544
Azərmətbuat ASC - 0124411991, 0124404694
Səma MMC - 0125940252, 0503336969
Pressaİnform MMC - 0703400100, 0504560835
Qaya MMC - 0125667780, 0502352343
Qasid MMC- 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
Ziya LTD - 0124977696, 0503067744

**1 nüsxə qəzet üçün 6 aylıq abunənin qiyməti 52.80 AZN**
**1 nüsxə qəzet üçün 1 illik abunənin qiyməti 105.60 AZN**







# "Azercell Telekom" MMC "Bakı Marafonu - 2023"ün eksklüziv tərəfdaşıdır

## Lider mobil operator bütün abunəçilərini marafona qatılmağa dəvət edir!

May ayının 7-də Heydər Əliyev Fondunun təşəbbüsü, "Azercell Telekom" MMC-nin eksklüziv tərəfdaşlığı ilə ölkəmizin mühüm idman tədbirlərindən biri olan "Bakı Marafonu - 2023" keçiriləcək.

İdmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyan bu marafon həm Azərbaycandan, həm də dünyanın fərqli ölkələrindən minlərlə idmansevəri bir araya gətirəcək. "Küləyə qalib gəl" şüarı altında keçiriləcək yarımarafon 21 kilometr məsafəni əhatə edir. Start və finiş nöqtələri Dövlət Bayrağı Meydanında olacaq.

Azercell-in dəstəyilə keçirilən marafonda yarış nəticələrinin maksimal dəqiqliyini təmin etmək və qalibləri müəyyənləşdirmək üçün rəqəmsal xronometrdən (timekeeper) istifadə olunacaq. Bunun üçün marafonçuların nişan nömrələrinə xüsusi mikroçiplər yerləşdiriləcək və nəticələr dərhal qeydə alınacaq.

Yarışa qatılmaq üçün 18 yaşdan yuxarı şəxslər may ayının 1-dək Gənclik Mall, 28 Mall və Dəniz Mall-da quraşdırılmış xüsusi qeydiyyat məntəqələrinə, həmçinin www.marathon.az saytına müraciət edə bilərlər (ətraflı: www.marathon.az).

Qeyd edək ki, "Azercell Telekom" MMC 2017-ci ildən etibarən "Bakı Marafonu"nun baş sponsoru qismində çıxış edir. Bu il də ənənəvi olaraq marafonda "Azercell Telekom" MMC-nin rəhbər heyəti, şirkətin əməkdaşları və korporativ abunəçiləri də iştirak edəcək. Azercell hər kəsi "Bakı Marafonu"na qatılmağa dəvət edir və bütün iştirakçılara uğurlar arzu edir!

# Abidələr günü və UNESCO-nun ikili standartı...

*Günel ABBAS*



18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi üzrə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

Təkcə XX əsrdə baş vermiş iki dünya müharibəsi zamanı saysız-hesabsız minlərlə abidə məhv olub, tarixi yerlər dağıdılıb. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Qarabağda da 30 ilə yaxın davam edən işğal müddətində xalqımızın mədəni irsi məhv edilib, şəhərlərimiz, kəndlərimiz yer üzündən silinib. Bu baxımdan, Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün qeyd edilməsi böyük əhəmiyyətə malikdir.

Azərbaycan ərazisində yerləşən abidələr dünya, ölkə və yerli əhəmiyyətli olmaqla təsnifatlandırılır. Bu gün Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni irs nümunələrindən olan Şirvanşahlar Sarayı, Qız Qalası və İçərişəhər, Qobustan Qaya Sənəti Mədəni Landşaftı və Şəki xan sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilmiş və dünya mədəni irs xəzinəsinin bir hissəsi kimi qorunmaqdadır. Hazırda Bakı, Qəbələ, Qax, Şabran, Qazax, Bərdə, Şamaxı və Şəmkirdə mövcud olan tarixi abidələrimizin Dünya Mədəni İrs Siyahısına daxil edilməsi üçün əməkdaşlıq müstəvisində beynəlxalq təşkilatlarla qarşılıqlı işlər aparılır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə xalqımızın tarixinin öyrənilməsi, tarixi və mədəni irsinin qorunub saxlanılması sahəsində mühüm işlər görülüb. Mədəni irsimizi, abidələrimizi qorumağa yönəlmiş hüquqi-praktiki əsaslar yaradılıb.

44 günlük Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Zəfərimizin nəticəsi olaraq işğaldan azad edilmiş ərazilərimizdə tarixi mədəniyyət abidələrinin bərpa olunması qarşımızda yeni məqsədlər qoyub. Belə ki, ötən il ərzində Şuşa şəhərində yerləşən abidələrin elektron xəritəsi tərtib edilib, Şuşada aparılan monitorinq çərçivəsində 45 tarixi abidənin üzərinə məlumat lövhələri quraşdırılıb. Eyni zamanda, Şuşa şəhərində dövlət qeydiyyatına alınmış tarix-memarlıq abidələrinin kataloqu tərtib edilib. Hazırda "Şuşa - Azərbaycan mədəniyyətinin paytaxtı" adlı nəşrin çap olunması ilə bağlı işlər aparılır. 2021-ci il ərzində Şuşa şəhərində yerləşən abidələrin elektron xəritəsi tərtib edilmiş və Şuşa şəhərində dövlət qeydiyyatına alınmış tarix-memarlıq abidələrinin inventarlaşdırılması başa çatdırılıb.

Bundan əlavə, Şuşa şəhərində abidələrin "Bərpa təlimatı" hazırlanıb. Sənəddə işğalın nəticələri və səbəb olduğu dağıntılar, abidələrin monitorinqi və inventarlaşdırılması, bərpası və regenerasiyası, bərpa prosesi, abidələrin identifikasiya və lokalizasiya məlumatları, tikililərin tipologiyası və xüsusiyyətləri, abidələrin bərpa statusu və risk faktorları, onların qorunması üçün təcili mühafizə tədbirləri, tarixi-memarlıq tədqiqatları və memarlıq tipologiyası öz əksini tapıb. Şuşa qoruğunun fəaliyyəti ilə bağlı sənədlər müvafiq tapşırığa uyğun olaraq Mədəniyyət Nazirliyi tərəfindən hazırlanaraq təqdim edilib.

**UNESCO qərəzli mövqedədir**



Təəssüfləndirici haldır ki, tarixi abidələrin qorunmasını özünə öhdəlik kimi seçmiş UNESCO ötən 3 il ərzində bir dəfə də olsun işğaldan azad edilmiş regionlara araşdırmaçı missiya göndərməyib. Halbuki baş verənləri, milli-mədəni abidələrimizə qarşı törədilən vandalizm aktlarını dünyaya yaymaq, onları qorumaq birbaşa UNESCO-nun üzərinə götürdüyü missiya və vəzifədir.

Xatırladaq ki, UNESCO Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumudur. Təşkilat 16 noyabr 1945-ci ildə yaradılıb, mərkəzi qərargahı Fransanın paytaxtı Parisdə yerləşir. Təşkilatın tərkibinə dünyanın müxtəlif hissələrində yerləşmiş 67 büro və alt bölmələr daxildir. UNESCO-nun Nizamnaməsi 1945-ci ildə London konfransında qəbul edilib, 4 noyabr 1946-cı ildə qüvvəyə minib. Hazırda dünyanın 191 ölkəsi bu təşkilatın üzvüdür.

UNESCO-nun əsas məqsədi - irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq, təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə kömək etməkdir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq irqi, cinsi, dil və ya dini mənsubiyyətindən asılı olmayaraq qanunvericilik və ədaləti, insanın əsas hüquq və azadlıqlarını təmin etməkdən ibarətdir. UNESCO məqsədini proqramının birinci maddəsində belə açıqlayır: "UNESCO, beynəlxalq əməkdaşlığına söykənən, elm, mədəniyyət və təhsil yolu ilə dünyamızın sülh və təhlükəsizliyini qorumaq məqsədi ilə qurulmuşdur".

UNESCO millətlərarası qarşılıqlı əlaqələri inkişaf etdirərək, anlaşmanı təmin etmək, insanları bir-birinə yaxınlaşdırmaq, habelə dünyanın geri qalmış ölkələrində kütləvi savadsızlığın aradan qaldırılması kimi prioritet istiqamətləri özünün əsas fəaliyyəti hesab edir.

UNESCO-nun fəaliyyətinin əsas istiqamətlərindən biri tarixi mədəniyyət abidələrinin mühafizə edilməsidir. Amma Azərbaycana münasibətdə fərqli standartların şahidi oluruq.

UNESCO-nun Azərbaycanla bağlı davranışları, fikirləri ikili standarta söykənir. Bu mənada, düşünmək olar ki, bu qurum fərqli güclərin, dairələrin maraqlarına xidmət edərək əsl həqiqətlərin üzə çıxmasında, erməni vandalizminin dünyaya tanıdılmasında maraqlı deyil. Əks halda, işğal faktının aradan qaldırılmasından ötən iki ildə erməni təcavüzünə məruz qalmış tarixi abidələr onların marağını və diqqətini "cəlb edərdi".



## Yeniyetmə üzgüçülərimiz Macarıstandan 32 medalla qayıdırlar

Azərbaycan üzgüçüləri Macarıstanın Şopron şəhərində keçirilən yeniyetmələr arasında beynəlxalq turnirdə 32 medal qazanıblar.

Azərbaycan Üzgüçülük Federasiyasından AZƏRTAC-a bildiriblər ki, idmançılarımız 14 qızıl, 8 gümüş, 10 bürünc medal əldə ediblər.



Almaniya, Fransa, Macarıstan, Slovakiya və Xorvatiya kimi komandaların mübarizə apardığı yarışda 18 üzgüçüdən ibarət yığmanın heyətində Məryəm Cavadova üç qızıl və bir gümüş medala sahib olub.

Həmçinin turnirdə Oqtay Hüseynov 2 qızıl, 1 gümüş, 1 bürünc, Amin Orujli 1 qızıl, Fərhad Şirməmmədli 1 qızıl, 2 gümüş, 1 bürünc, Xumar Mustafayeva 1 qızıl, 1 bürünc, Daniyal Muhəmməd 2 qızıl, Anastasiya Boborkina 1 qızıl, 1 bürünc, Əbdürrəhman Rüstəmov 2 qızıl, 2 gümüş, 1 bürünc, Timur Beker 1 qızıl, 1 bürünc, Mehri Abdürrəhmanlı 1 gümüş, Vlastina Xasyanova 1 gümüş, 1 bürünc, Orxan Əliyev, Sura Katerina, Ramal Sadıqlı isə 1 bürünc medal əldə ediblər.

## Samboçularımız İsraildə Avropa çempionatında güclərini sınayacaqlar

Aprelin 18-24-də İsrailin Hayfa şəhərində kadetlər, yeniyetmələr, gənclər və kişilər arasında sambo üzrə Avropa çempionatı və birincilikləri keçiriləcək.

AZƏRTAC Azərbaycan Sambo Federasiyasına istinadla xəbər verir ki, ölkəmiz yarışlarda 23 idmançı ilə təmsil olunacaq.

Kadetlər arasında İsmayıl Əlipənahov (49 kq), Toğrul Kərimli (53 kq), Nihad Rəhimov (58 kq), Sadiq Nadirov (64 kq), Kənan Məmmədli (71 kq) və Hüseyn Hüseynli (88 kq) güclərini sınayacaqlar.

Amin İsmayılov (53 kq), Nicat İsmayılov (58 kq), Elsevər Verdiyev (64 kq), Ricad Nadirov (71 kq) və Sülhan Süleymanlı (79 kq) yeniyetmə samboçular arasında mübarizə aparacaqlar.

Gənclərin mübarizəsində Sahib Babayev (58 kq), Abdurrahman Səbzəliyev (64 kq), Canəli Əlizadə (71 kq), Səməd Şıxıyev (79 kq), Sadiq Zeynallı (88 kq) və Məhəmməd Məmmədzadə (+98 kq) yarışacaqlar.

Kişilərin yarışında Mehman Xəlilov (58 kq), Mirfəttah Seyidəliyev (64 kq), Hacalı Qasımov (71 kq), Adil Adilzadə (79 kq), Ceyhun Hüseynov (88 kq) və Şirin Cavadzadə (98 kq) ölkəmizin idman şərəfini qoruyacaqlar.

Yarışlarda Azərbaycan ilə yanaşı, Belçika, Bolqarıstan, Bosniya və Herseqovina, Macarıstan, Almaniya, Yunanıstan, İsrail, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Kipr, Latviya və digər ölkələrdən idmançılar iştirak edəcəklər.

Millimiz baş məşqçi Vahid Tarverdiyev, məşqçilər Cabir İsmayılov və Elçin İbrahimovun rəhbərliyi altında mübarizə aparacaqlar.




## Yarış zamanı nəqliyyatın hərəkəti ilə bağlı açıqlama

Aprelin 24-də gecə saat 01:00-dan etibarən Bakı Şəhər Halqasının (BŞH) əhatə etdiyi prospekt və küçələrdə nəqliyyatın hərəkəti məhdudlaşacaq. Nəqliyyatın hərəkəti mayın 2-də səhər saat 08:00-dan etibarən bərpa olunacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BŞH) aprelin 28-dən 30-dək keçiriləcək 2023-cü il Formula 1 Azərbaycan Qran-Prisi zamanı nəqliyyatın hərəkəti ilə bağlı açıqlamasında bildirilib.

"Nəqliyyatın hərəkət məhdudiyyəti 3 zonada tətbiq olunacaq. Birinci zona yarış halqasının əhatə etdiyi İçərişəhər ərazisi, ikinci zona Azadlıq meydanı və onun yaxınlığında yerləşən digər küçələr, üçüncü zona isə BMT-nin 50 illiyi küçəsini əhatə edən ərazidir. Yarışın keçirildiyi müddətdə qeyd olunan ərazilərə nəqliyyatın giriş-çıxışı "Yaşayış Yerinə Giriş İcazəsi" əsasında təmin olunacaq. Bu zonalarda yaşayan və ya əmək fəaliyyəti ilə məşğul olan nəqliyyat vasitələrinin sahibləri icazəni tam ödənişsiz əldə edə biləcəklər", - deyə BŞH-nin sözçüsü Turab Teymurov sürücülərə alternativ yollardan istifadə etmələrini tövsiyə edib.

"Vətəndaşlar "Yaşayış Yerin? Giriş İcazə" sənədini zonalar üzrə paylanma məntəqələrinə yaxınlaşaraq, həftənin bazar ertəsindən cümə gününə kimi, saat 10:00-dan 17:00-dək əldə edə bilərlər. Bunun üçün vətəndaşlar zonalar üzrə aşağıdakı müvafiq idarələrə müraciət etməlidirlər.

Zona 1 buraxılışın paylanma məntəqəsi İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Böyük Qala küçəsi 41, Keçmiş ensiklopediya Binası, 4-cü mərtəbə, nömrə (012) 497-35-89, zona 2 buraxılışın paylanma məntəqəsi Mənzil-Kommunal və İstismar İdarəsi No 4 Xəqani küçəsi 26/32, nömrə (012) 498 88 06, zona 3 buraxılışın paylanma məntəqəsi Mənzil-Kommunal və İstismar İdarəsi No 58, İstiqlaliyyət küçəsi 5, (012) 492 41 85)", - məlumatda bildirilib.

Qeyd edək ki, "Yaşayış Yerinə Giriş İcazəsi"nin paylanması aprelin 10-dan başlayıb və aprelin 28-dək davam edəcək.




Hər il olduğu kimi, bu il də Formula 1 Azərbaycan Qran-Prisi müddətində piyadaların hərəkətinə heç bir məhdudiyyət qoyulmayacaq. Belə ki, yarış həftəsi ərzində şəhər sakinlərinin maneəsiz hərəkətini təmin etmək üçün yarış halqası ərazisində yerləşən daimi yeraltı keçidlər gün boyu açıq olacaq.

Formula 1 Azərbaycan Qran-Prisinin mətbuat katibi Turab Teymurov deyib ki, piyadalar halqa ətrafında yerləşən Azərbaycan prospekti ilə İstiqlaliyyət küçəsinin, Xaqani və Rəşid Behbudov küçələrinin, Azadlıq prospekti ilə Xaqani küçəsinin kəsişməsində quraşdırılan müvəqqəti yerüstü keçidlərdən də istifadə edə biləcəklər. Rəşid Behbudov küçəsinin Neftçilər prospekti ilə kəsişməsində salınacaq keçid isə daimi olaraq quraşdırılıb.

O qeyd edib ki, bundan əlavə, yarış həftəsi ərzində trekin əhatə etdiyi bəzi yollar əhalinin istifadəsi üçün açılacaq. Yarış zolağının Neftçilər prospektinin Azneft dairəsindən Dəniz Vağzalı istiqamətində olan hissəsi və İstiqlaliyyət küçəsinin Şeyx Şamil küçəsindən Azərbaycan prospektinə qədər olan hissəsi yalnız birtərəfli olmaqla aprelin 24-dən 29-dək müəyyən saatlarda nəqliyyatın hərəkətinə açıq olacaq.

Belə ki, aprelin 24-dən 26-dək səhər saatlarında 07:00-dan 09:00-dək, axşam saatlarında isə 18:00-dan 20:00-dək sözügedən yollarda (Neftçilər prospektinin Azneft dairəsindən yalnız Dəniz Vağzalı istiqamətində olan hissəsi və İstiqlaliyyət küçəsinin Şeyx Şamil küçəsindən Azərbaycan prospektinə qədər olan hissəsi) yalnız birtərəfli olmaqla nəqliyyatın hərəkəti dayanma və durma olmadan sərbəst olacaq.

"Aprelin 27-də Neftçilər prospektinin Azneft dairəsindən yalnız Dəniz Vağzalı istiqamətində olan hissəsi yalnız birtərəfli olmaqla səhər saatlarında 07:00-dan 09:00-dək, axşam saatlarında isə 20:00-dan 22:00-dək açıq olacaq. Aprelin 28-29-u tarixlərində isə burada nəqliyyatın hərəkəti yalnız axşam saatlarında 20:00-dan 22:00-dək mümkün olacaq.

Bakı Şəhər Halqası (BŞH) sürücülərə bildirir ki, qeyd olunan yollar yalnız tranzit dəhlizi kimi istifadə ediləcək və bu yollarda nəqliyyatın hərəkəti yalnız bir istiqamətdə mümkün olacaq. Maşınların burada dayanması və ya parkinqi təhlükəsizlik baxımından tamamilə qadağandır. Bundan başqa, həmin yollarda ağır tonnajlı yük maşınlarının və ictimai nəqliyyatın hərəkəti istisna edilir", - deyə mətbuat katibi bildirib.

Qeyd edək ki, sözügedən yollarda sürət həddi 50 km/saat olaraq müəyyən edilib. Bu yollardakı nəqliyyatın hərəkətini BŞH və aidiyyəti güc strukturları birgə tənzimləyəcək.

Nəqliyyatın hərəkəti ilə bağlı ətraflı məlumatı BŞH-nin rəsmi veb-səhifəsindən əldə edə bilərsiniz.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 7627
Sifariş: 986
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nicat DİLQƏMLİ